
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 19 (24.401)

18 may 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


## Prezident İlham ƏLİYEV:

***"Şuşa bizim əyilməz ruhumuzun rəmzidir. Şuşa hər bir Azərbaycan vətəndaşının qəlbində elə bir böyük iz buraxıb ki, Şuşasız müharibənin uğurla başa çatması mümkün deyildi."***



# "Əziz şuşalılar, Şuşaya xoş gəlmisiniz"

Vətən doğulduğun, böyüdüyün, havasını aldığın, suyundan içdiyin torpaqdır. Onun ətrini bir dəfə duyduğunda bir də heç vaxt unuda bilmirsən. Məhz elə Qarabağ torpaqlarından bir zamanlar didərgin, məcburi köçkün düşmüş insanlar kimi. Onlar da unutmadılar. Və artıq öz doğma yurdlarına, el-obalarına qayıdıblar. O cənnət torpaqlarda əbədi yaşamaq üçün...

Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın incisi Şuşa şəhəri növbəti dəfə dünyanın diqqətini cəlb etdi. Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasiminin keçirilməsi, Şuşaya ilk sakinlərin qayıdışı, Laçın rayonunun Sus kəndində sakinlərin məskunlaşması əlamətdar hadisələr idi.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev ölkəyə rəhbərliyi dövründə ağır problemlərdən hesab edilən qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə diqqət göstərmiş, onların qayğısına qalmışdır. Ulu Öndər hər dəfə məcburi köçkünlərlə görüşdə onlara bir gün doğma yurdlarına qayıdacaqlarını söyləmiş, bugünkü günə böyük ümid, ruh yüksəkliyi yaratmışdır. Görkəmli dövlət xadimi 1996-cı il mayın 6-da Şuşa və Laçın rayonları sakinlərinin bir qrupu ilə görüşdə demişdir: *"Bu dərdi biz hamımız çəkirik. Ancaq bilirəm ki, şuşalılar, laçınlılar daha çox dərd, qəm içindədirlər. Çünki onlar həm də yerlərindən, yurdlarından didərgin düşdüklərinə görə ağır həyat tərzi keçirirlər. Təəssüf ki, bunlar hamısı həyatımızın reallığıdır. Biz bunlara dözürük, eyni zamanda əminik ki, bütün torpaqlarımız azad ediləcək, o cümlədən Şuşa da, Laçın da azad olunacaq, şuşalılar, laçınlılar öz evlərinə, yurdlarına, torpaqlarına qayıdacaqlar. Buna heç şübhə yoxdur..."*

Ulu Öndərin siyasi kursunun uğurlu davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev bu illər ərzində qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılmasını daim diqqətdə saxlamış, bunun üçün Dövlət proqramları qəbul etmişdir. Bu gün sevincliyik, qürurluyuq ki, ata vəsiyyətinə həmişə sadiq qalan dövlət başçısının qətiyyəti, yenilməz iradəsi, ordumuzun gücü, rəşadəti hesabına torpaqlarımız azaddır. Ölkə başçısının rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdış" proqramı uğurla icra edilir. Məhz 32 ildən sonra Şuşa şəhəri öz doğma sakinlərinə qucaq açdı. Bu, Şuşanın dirçəlməsinin, ona yeni həyat verilməsinin ifadəsidir.

Ümummilli Lider Heydər Əliyevin doğulduğu gündə – mayın 10-da Prezident cənab İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada inşa ediləcək üçüncü yaşayış kompleksinin, Şuşa rayonunun Turşsu qəsəbəsinin təməlini qoyması, Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanışlığı və kəndə köçmüş sakinlərlə görüşü məhz uzun illərdən sonra arzuların, ümidlərin çin olması, həmin gün Şuşada birinci yaşayış kompleksinin açılışı və ilk sakinlərlə görüş isə Şuşaya əsl sahiblərinin, doğma nəfəsin qayıtması demək idi. Birinci yaşayış kompleksində 450, ikincidə 300-ə yaxın, üçüncüdə isə 500-ə yaxın mənzil inşa ediləcək. Prezident cənab İlham Əliyev Şuşaya ilk köç edən ailələrlə görüşü zamanı dedi ki, burada əbədi yaşamağa gəlmişik və bundan sonra Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaq.

Şuşalılar bundan sonra daha torpaq acısı, yurd ağrısı çəkməyəcək, müasir, modern üslubda dizayn olunmuş mənzillərdə rahat, yaxşı yaşayacaq, qurub yaradacaqlar. Sakinlər içərisində şəhid, qazi ailələrinin, Vətən müharibəsi iştirakçılarının olması bir daha onlara göstərilən dövlət qayğısının bariz nümunəsidir. Bəli, bu gün işğaldan azad edilmiş torpaqlarımıza – Şuşamıza, Laçınımıza qayıtmışıqsa, bunu Ali Baş Komandanımıza, torpaqlarımızı öz canı-qanı bahasına azad edən vətənpərvər oğullara borcluyuq. Prezident cənab İlham Əliyevin də dediyi kimi: ***"…Savadlı, bilikli, vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən sağlam, saf gənc nəsil yetişdirdik və onlar mənim əmrimlə 44 gün ərzində öz sinələrini qabağa verərək torpaqları azad etdilər. Bugünkü günə görə biz onlara borcluyuq, şanlı Ordumuza borcluyuq, Silahlı Qüvvələrimizə borcluyuq, şəhidlərimizə, qazilərimizə borcluyuq. Allah bütün şəhidlərimizə rəhmət eləsin".***

**Güntac ŞAHMƏMMƏDLİ**

## Səlahiyyətli nümayəndə Türkiyə Ticarət Nazirliyinin nümayəndə heyətini qəbul edib





Mayın 15-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Türkiyə Respublikası Ticarət Nazirliyinin departament rəhbəri Mustafa Yavuzun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan səlahiyyətli nümayəndə ölkələrimiz arasındakı dostluq və qardaşlıq əlaqələrinin inkişafının məmnunluq doğurduğunu ifadə edib. Bildirib ki, Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə yüksəlmiş əlaqələrimiz bütün sahələrdə yüksələn xəttlə inkişaf edir. Türk dünyası üçün strateji mövqedə yerləşən Naxçıvan bu münasibətlərin inkişafında mühüm əhəmiyyətə malikdir.

Naxçıvanın İqdır, Qars və Ağrı vilayətləri ilə qardaşlıq münasibətlərindən bəhs edən Fuad Nəcəfli Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğunun bu baxımdan fəaliyyətini yüksək qiymətləndirib. Xüsusilə ticarət və investisiya sahələrində böyük perspektivlərin olduğunu bildirən səlahiyyətli nümayəndə türkiyəli iş adamlarını bu sahələrdə fəal işbirliyinə dəvət edib.

Səmimi qəbula görə minnətdarlıq edən Türkiyə Respublikası Ticarət Nazirliyinin departament rəhbəri Mustafa Yavuz nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfərinin önəmini vurğulayıb. Nümayəndə heyətinin rəhbəri təmsil etdiyi qurumun Naxçıvanla ticarət əlaqələrinin ən üst səviyyəyə çıxmasında maraqlı olduğunu bildirib.

Söhbət zamanı sərhədyanı ticarət və gömrük güzəştlərinin tətbiqi istiqamətlərində perspektiv imkanlar, eləcə də qarşılıqlı maraqdoğuran digər məsələlər müzakirə edilib.

Görüşdə Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya iştirak edib.


Mədəniyyətlərarası dialoqa əvəzsiz töhfə – "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı 3

Prezidentin Şuşa mesajları kimə yönəlmişdi? 4

İğdır-Naxçıvan təbii qaz kəmərinin tikintisi qısa müddətdə tamamlanacaq 5

Haradadır bu Əlincə qalasının qapısı? 7

Külüs kəndində canlanan həyat 10

Nuh yurdunun əzəmətli Haçadağı 12



Ulu Öndərin arzuladığı Naxçıvan

# “Görünür, mənim Naxçıvana gəlməyim taleyin işi imiş”

***“Mən üç il Naxçıvanda yaşamağımı və sizinlə, muxtar respublikanın əhalisi ilə birlikdə işləməyimi həyatımın, deyə bilərəm ki, ən parlaq, ən şərəfli bir dövrü hesab edirəm”.*** Ulu Öndər Heydər Əliyevin bu sözlərini qədim diyarımızın 100 illik yubileyini qeyd etdiyimiz dövrdə daha tez-tez xatırlayırıq. Bu da təbiidir. Ölkə başçısı cənab İlham Əliyev o dövrü belə xarakterizə edir: ***“O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu”.***

Doğrudan da, belə idi. Görkəmli dövlət xadiminin gəlişi ilə naxçıvanlılar özlərinin ən böyük dayağı ətrafında birləşdilər; O, naxçıvanlıların itmiş ümidlərini və inamlarını özlərinə qaytardı. Bir qədər geriyə qayıdaq.

...Çoxlarımızın yaşadığı, yaxşı xatırladığı o günləri xarakterizə etmək tariximizin 35 illik bir dövrünün salnaməsini yaratmaq deməkdir – şərəfli və öyünüləsi bir dövrünün. Tarixə yazılmış bu salnamənin hər kiçik detalı o günlərimizin inkişaf və tərəqqi tarixidir; cild-cild kitablara, zamanlara sığmayan bu tarixin ən böyük hadisəsi məhz Ulu Öndər Heydər Əliyevdir. Buna görə də Heydər Əliyev ömrü, Heydər Əliyev ictimai-siyasi fəaliyyəti ölməzdir; daha böyük nailiyyətlər qazanmaq üçün sınaqdan çıxmış proqram sənədimizdir; hər birimiz üçün oxumalı, öyrənməli olan örnək və qürur mənbəyidir.

Dönməz qətiyyəti və möhkəm iradəsi, dərin zəkası ilə siyasət aləmində tanınmağa başlayanda sovetlər birliyində vahid idarəçilik prinsipi mövcud idi. Bu prinsiplərdən imtina etmək – köhnə stereotiplərdən əl çəkmək barədə düşünməyə belə dəymazdi. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz o vaxt üzə çıxmağa başladı. 15 müttəfiq respublika içərisində ən geridə qalan ucqar əyalət hesab olunan Azərbaycan qısa bir müddətdə öz müdrik və uzaqgörən başçısının rəhbərliyi ilə iri addımlarla irəliləməyə başladı. Respublikamız xalq təsərrüfatının bütün sahələrində kosmik sürətli yüksəliş yoluna qədəm qoydu. İqtisadiyyatımız yeni əsaslarla qurulmağa başladı. Xalq təhsili, səhiyyə, mədəniyyət qısa bir müddət ərzində on illərin inkişaf yolunu keçdi. Mərkəzlə yanaşı, respublikanın ucqar yerlərində belə tikinti-quruculuq işləri geniş vüsət aldı. Ulu Öndərin şəxsi keyfiyyətləri, yüksək nüfuzu sayəsində mərkəzdən alınan maliyyə dəstəyi hesabına ehtiyac duyulan bir sıra istehsal müəssisələri yaradıldı. Fabrik və zavodlar işə düşdü. Yaşayış obyektləri, mədəni-maarif ocaqları inşa olundu. Uzun illər kök salmış bir sıra qlobal problemlərin həlli yollarında qəti addımlar atıldı və bu addımlar öz nəticələrini verdi.

Postsovet məkanının onu gözü götürməyən bəzi liderləri respublikada bu güclü inkişafı “üzəngi parıldatmaq” kimi qəbul etsələr də, sonralar öz qənaətlərində yanıldıqlarını başa düşdülər. Və belə bir şəxsiyyəti sanki yenidən tanımağa başladılar. Mərkəzi Komitənin Siyasi Bürosuna üzvlüyə namizəd seçilməsi isə çoxlarının kürkünə birə saldı. Çünki Heydər Əliyev belələrinin çirkin əməllərlə məşğul olmalarına imkan vermirdi. Dahi Öndər 1982-ci ildə Siyasi Büro üzvlüyünə namizədlikdən üzvlüyə keçirildi. Və Sovet İttifaqına rəhbər vəzifəyə aparıldı. Bu isə onun işgüzar fəaliyyətinə verilən qiymət idi. O da bu posta layiq olduğunu öz fəaliyyəti ilə sübut etdi.

... Və yaşanmış bu yol Ona imkan verdi ki, Naxçıvanı düşdüyü ağır vəziyyətdən qurtarsın. Sonralar Ulu Öndər deyəcəkdi: ***“1990-cı ilin yayı idi. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da vəziyyət çox ağır idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma, eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər... Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Görünür, mənim Naxçıvana gəlməyim taleyin işi imiş”.***

Naxçıvanın qədim dövlətçilik tarixini Azərbaycanın dövlətçilik tarixi sayan Ulu Öndərin Naxçıvana qayıtdıqdan sonra Ordubad rayonunun sakinləri ilə görüşündə mən də iştirak etmişəm. Yadımda qalan ən böyük məqamlardan biri odur ki, bu görüşə bir ucu Sədərək, bir ucu Şahbuz olmaqla muxtar respublikanın bütün bölgələrindən gəlmişdilər. Görkəmli dövlət xadiminin Ordubada bu gəlişində hələ sovet hökuməti dağılmamışdı. Dövləti hələ M.Qorbaçov “idarə edirdi”. Onunla görüş ovaxtkı Ordubad Rayon Partiya Komitəsinin binası qarşısında baş tutmuşdu...

...İllər ötüb o vaxtdan. Ancaq o görüşdə Ulu Öndərin dağılmaq ərəfəsində olan imperiyanın iç üzü haqqında dedikləri bir ittiham idi. Bunu da xatırladaq ki, o vaxt Ümummilli Liderimiz heç bir vəzifə, titul sahibi deyil, Heydər Əliyev idi... Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq üçün yox, ancaq və ancaq respublikanın ağır və çətin dövründə xalqın dərdinə şərik olmaq, vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda qoşulmağa gələn görkəmli dövlət xadiminin Naxçıvana rəhbər seçilməsi naxçıvanlıların ən uzaqgörən və düzgün seçimi oldu:

***“Dünən sessiya keçirilərkən binanın qarşısına minlərlə Naxçıvan əhalisi (təkcə şəhərdən yox, rayonlardan, kəndlərdən gələnlər) kənardan sessiyaya təsir göstərir və tələb edirdilər ki, Heydər Əliyev seçilsin. Onların təzyiqinin qarşısında dura bilməzdim. Xalqın bu əhvali-ruhiyyəsini, tələblərini, sonra sessiyadakı çıxışları nəzərə alaraq bütün məsələləri götür-qoy etdim”.***

Beləcə, Ulu Öndər 3 il Naxçıvanda fəaliyyət göstərdi. Bu gün dünyanın tanınmış siyasət xadimləri də vurğulayırlar ki, O, müstəqil Azərbaycanın gələcək mövcudluğunun konturlarını elə Naxçıvanda cızırdı. Ulu Öndərlə bir neçə dəfə görüşən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində əvvəlcə “Mübariz keşikdə” qəzetinin müxbiri, sonra isə nazirliyin şöbə müdiri vəzifəsində işləmiş, hazırda təqaüddə olan, hər il məzuniyyətinin bir neçə gününü Naxçıvanda keçirən polkovnik Rahib Qarayevin sözlərini xatırlayıram. “Naxçıvanın dünənki simasını bugünkü uşaqlara danışsan, yəqin ki, inanmazlar. İnanmazlar ki, bəli, Naxçıvan ağır günlər yaşayıb. Yaşayıb və dözüb. Dözüb və bu günlərə sahib olub. Ulu Öndərin Naxçıvandan başlanan quruculuq siyasəti Azərbaycanın hər yerini əhatə edib. Naxçıvanın günbəgün deyil, ilbəil deyil, saatbasaat dəyişməsini, gözəlləşməsini hər gəlişimdə görürəm. Bu yeniləşmə Naxçıvanda ölkə başçısının böyük diqqət və qayğısı ilə illərdir ki, davam edir. Azərbaycan Respublikası Prezidentinin Naxçıvana hər gəlişi burada toy-bayrama çevrilir, naxçıvanlılar möhtəşəm açılışlara şahid olur, yeni tikiləcək obyektlərin sevincini yaşayırlar”.

Bu gün muxtariyyətinin yüz yaşını qeyd edən və günü-gündən cavanlaşan, özünün yeni inkişaf mərhələsində olan Naxçıvan Ulu Öndərin yadigarlarından biridir. Onun muxtariyyətinin qorunması isə görkəmli dövlət xadiminin yurd yerinin sabahını düşünməsinin ifadəsidir. Ulu Öndər deyirdi: ***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz onu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının da qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq”.***

Görkəmli dövlət xadimi Naxçıvanın muxtariyyətinin hüquqi əsaslarının əksini tapdığı Moskva və Qars müqaviləsinə böyük önəm verərək deyirdi ki, Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə təmin etmək üçün Qars müqaviləsi əvəzi olmayan çox böyük sənəddir. Və ötən əsrin 90-cı illərində Ulu Öndərin həmin müqavilələni Türkiyədə gündəmə gətirməsinin hadisələrin inkişafına böyük təsiri oldu.

Ümummilli Liderimiz həmin müqavilələri əsas götürərək uğurlu bir diplomatik proses başlatdı və Naxçıvanın hərbi sahədə olduğu kimi, hüquqi-siyasi və diplomatik sahədə də müdafiəsi işi uğurla təşkil olundu. Nəticədə, hər iki müqavilənin əsas tərəflərindən biri olan Türkiyə Cümhuriyyəti Naxçıvanın təhlükəsizliyinin müdafiəsi işinə fəal şəkildə qoşuldu. 1992-ci ilin may ayında Naxçıvanın Sədərək rayonuna ermənilərin hücumu ilə əlaqədar Türkiyə hökuməti bəyanat qəbul edərək 1921-ci il Qars müqaviləsinin şərtlərinə əsasən Naxçıvan muxtariyyətinin qarantı olduğunu bütün dünyaya bəyan etdi. Türkiyə nəinki bilavasitə özünün fəal siyasi-diplomatik gedişləri ilə Naxçıvanın müdafiəsinə qoşuldu, eyni zamanda onun dəstəyi ilə 1992-ci ilin may ayında düşmənin hərbi əməliyyatları genişləndirdiyi bir vaxtda dünyanın 57 dövləti Ermənistanın Naxçıvana təcavüzünü qətiyyətlə pislədi ki, bu da, bütövlükdə, real nəticəyə gətirib çıxaran böyük diplomatik uğur idi. Və bu, Naxçıvanın gələcək inkişafında, uğurlar qazanılmasında təməl rolunu oynadı. Həyat öz axarı ilə davam edir, yeni qələbələrə imza atılır, Naxçıvan öz köklləri üstündə ucalırdı.

...Tarix üçün çox qısa zaman kəsiyi olan ötən 20 il göstərdi ki, Ulu Öndərin bu qədim diyar üçün etdiklərini Onun siyasətinə böyük diqqət və ehtiram göstərən ölkə Prezidenti cənab İlham Əliyev yeni müstəvidə həyata keçirir. Daha dəqiq desək, bu gün Naxçıvanın yeni inkişaf tarixi yazılır. Həmin tarixi qısaca vərəqləsək, görərik ki, muxtar respublikanın rayon mərkəzləri, ən ucqar dağ, sərhəd yaşayış məntəqələri qəsəbə timsallıdır və bütün bunlar sosial-iqtisadi inkişafdan soraq verir. Ona görə də dünən Naxçıvanın qonağı olanlar bu gün buradan yüksək təəssüratlarla ayrılırlar. Hər addımda bir yenilik görmək, hər gün bir təzəliklə rastlaşmaq isə naxçıvanlılar üçün adi hala çevrilib. Naxçıvan yenidən qurulduqca daha da gözəlləşir. Xaricdən buraya gələn və yurdumuzun inkişafı barədə bir qədər məlumatlı olan turistin sözlərini həmişə xatırlayıram: Bu yeniliklər gündəlik olaraq sizin gözləriniz qarşısında baş verdiyi üçün sizə adi görünür. O da qeyd olunmalıdır ki, bu işlərin blokada şəraitində yaşayan bir məmləkətdə reallaşması asan məsələ deyil. Bunların təməlində isə doğma yurda sevgi və məhəbbət, insan amilinə, yurd amilinə diqqət dayanır. Beləcə, yurd sevgisindən qaynaqlanaraq keçilən və seçilən yol Naxçıvanı sürətlə inkişafa qovuşdurub.

Ölkə başçısının muxtar respublikada yeni idarəetmə modelinin tətbiqi ilə bağlı imzaladığı 2022-ci il 22 dekabr tarixli Fərmanla Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə təsdiq olunub. Bu isə naxçıvanlılarda yeni ovqat yaradıb, onların qurub-yaratmaq əzmini daha da yüksəldib. Ata vəsiyyətini ən müqəddəs vəzifə sayan ölkə başçısının Naxçıvanın inkişafı üçün lazım olan hər bir işi görməsi isə ərazi cəhətdən blokada şəraitində yaşayan bu yurd yerinin sakinlərinin heç bir çətinliklə üzləşməməsi məqsədi daşıyır. Elə cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” bunun bir daha sübutudur. 11 prioritetin nəzərdə tutulduğu Proqramın qəbulundan sonra muxtar respublikada xeyli iş görülüb və görülməkdədir. Bunlar isə Naxçıvana əlavə gözəlliklər qatır. Ötən ilin sonunda naxçıvanlılar daha bir sevinc yaşadılar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2023-cü il 30 dekabr tarixli Sərəncam imzaladı. Sərəncamda deyilir: *“Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən mühüm qərarların təşəbbüskarı olmuşdur”.*

Sərəncamın imzalanmasından ötən qısa müddət ərzində muxtar respublikamızda, paytaxt Bakı şəhərində, qardaş Türkiyə Respublikasında tədbirlər keçirilmiş, həmin silsilə tədbirlər davam etdirilməkdədir.

Bu tədbirlər yurdsevər naxçıvanlıların qurub-yaratmaq, bundan da xoş sabahlarda yaşamaq əzmini artırmaqdadır. Onlar dünəni unutmur, bu günlərin qədrini bilir, gələcəyə inamla addımlayırlar.

Hər bir naxçıvanlı üçün doğmadan doğma olan bu qədim yurd yerini, dünəni, bu günü, inkişaf və tərəqqisi barədə bu kiçik qeydlərimi başa çatdırarkən Ulu Öndərin sözlərini xatırladım: ***“Naxçıvan artıq 1991-92-93-cü illərdə olan Naxçıvan deyil. Naxçıvan indi tamamilə başqadır. Naxçıvanlılar bu haqqı qazanıblar. Naxçıvanlılar özlərinin dəyanəti, dözümlülüyü, qüdrəti, cəsarəti və mənəvi saflığı ilə bu haqqı qazanıblar”.***

**Muxtar MƏMMƏDOV**



# Mədəniyyətlərarası dialoqa əvəzsiz töhfə – “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı

**Prezident İlham ƏLİYEV:**

“*Şuşa mədəniyyət ocağı kimi tanınsa da, hazırda, eyni zamanda, qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir. Çünki məhz Şuşanın azad olunmasından sonra işğalçılar tam anladılar ki, müqavimət göstərmək onlara heç nə verməyəcək və beləliklə, bu gün biz Şuşanı tam haqlı olaraq sülhün rəmzi kimi qiymətləndirə bilərik.*”



Böyük Qələbəmizin simvolu, zəfər andımız, sülh rəmzimiz Şuşa artıq dördüncü ildir ki, öz tarixi ənənələrinə sadiq qalmaqla sivilizasiyalar üzrə, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə əvəzsiz töhfələr verməkdə davam edir. 1989-cu ildən keçirilməsinə başlanan, bir il sonra beynəlxalq status alan “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı artıq dünyanın diqqətini Azərbaycana, 272 yaşlı şəhərimizə yönəldən əsl dostluq bayramına çevrilib. Ömrünün 35-ci baharını yaşayan festival bu il daha rəngarəng, daha fərqli çalarları ilə yaddaşlarda dərin təəssürat buraxmağı bacardı...

Mayın 11-13- də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalı 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə, ilk növbədə, ev sahibliyi baxımından diqqətləri çəkdi. Belə ki, bu il Şuşa ilə yanaşı, azad Laçın torpağı da Azərbaycanın milli-mənəvi dəyərləri, dünya sivilizasiyasının inciləri ilə bəzəndi. Digər tərəfdən, “İslam dünyasının mədəniyyət paytaxtı” missiyasının icrasına uğurla başlayan Şuşa həm də öz soydaşlarının qayıdışı, yeni siması, dirçəlişi, birinci yaşayış kompleksinin açılışı ilə bu sənət bayramını qeyd etdi. Cıdır düzündə VII “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalının və “Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024” ilinin açılış mərasimində çıxışında ölkə Prezidenti cənab İlham Əliyev də bu məqama xüsusi toxundu. Sitat: ***“Biz 28 il Şuşasız yaşayırdıq. Həm şuşalılar, həm bütün Azərbaycan xalqı bu illəri mənəvi əzab illəri kimi öz yaddaşlarında saxlayırlar və saxlayacaqlar. Dünən Şuşa şəhərinin dirçəldilməsi istiqamətində növbəti addım atılmışdır, ilk sakinlər uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıb burada məskunlaşmışlar. Şuşanın tarixi simasının bərpası istiqamətində fəal işlər gedir. Şuşa, sözün əsl mənasında, dirçəlir”.***



Builki festival iştirakçılar baxımından da seçildi, Azərbaycanla yanaşı, ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər bir-birindən dəyərli musiqi nömrələri, mahnılarla çıxış etdilər. Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan və Türkiyə təmsilçilərinin sədalarının ucaldığı Şuşa torpağı sivilizasiyalar qovşağına çevrilməklə İslam Mədəniyyətinin müasir dövr tərəqqisinə, təbliğinə mühüm töhfə vermiş oldu. Bir sözlə, 28 illik vəhşiliyin, vandallığın yaratdığı natəmizlikdən qurtulub ilbəil daha da məsumlaşan Pənahəli xanın yadigarı paklığı, xoş ab-havası, əsrarəngizliyi ilə üç il ard-arda mədəniyyət paytaxtı missiyasına layiq görülməyini sübut etdi. Festivalda çıxışı zamanı Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlərə heyranlığını böyük şövqlə ifadə edən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik də mədəniyyət beşiyimiz haqqında yüksək diləklərini dilə gətirdi: “Üç il mədəniyyət paytaxtı adına layiq olan az sayda belə şəhər var. Bu, dərin bir işarədir. Bu, nailiyyətə, imkanlara və ehtirama işarədir. Bu, Şuşa şəhəridir – paklıq, saflıq və xoş ab-hava şəhəri. Şəhərin adı da elə buradan gəlir. Bizlərdən kimsə dünyada adı saflığa və təmizliyə uyğun gələn başqa şəhər tanıyırmı? Buranın havası təmiz, insanların hissləri pakdır. Buna görə də təəccüblü deyil ki, Şuşa bütünlüklə Qafqazda musiqinin paytaxtıdır, təsviri sənətin məkanıdır, gözəl Azərbaycan xalçasının vətənidir, musiqi, fikir və şairlər yurdudur. Görəsən, bütün bunlar paklığın və saflığın hədiyyəsidirmi?”

“Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalı musiqi mədəniyyətinin təbliği ilə yanaşı, hərzamankı kimi səmimi atmosferi ilə sevildi, seçildi. Sənətə, sənətkara daim dəyər verən Ümummilli Liderimiz Heydər Əliyevin layiqli varisi ölkə Prezidenti və birinci xanım həm Azərbaycanın, həm də dünyanın bir sıra ölkələrindən gələn tanınmış mədəniyyət xadimləri ilə görüşdülər, söhbət etdilər. Korifey sənətkarlar Zeynəb Xanlarova, Ramiz Quliyev və Firəngiz Mütəllimovanın da iştirak etdikləri festival Xalq artisti Arif Babayevin illər öncəki çıxışının nümayişi ilə hər bir tamaşaçıya unudulmaz, nostalji duyğular yaşatdı. Açılış konsertində illər sonra Şuşa səhnəsinə çıxan 86 yaşlı sənətkar jurnalistlərə müsahibəsində bu hadisəni böyük xoşbəxtlik adlandırdı, festivalın xalqımızın sülhsevərliyini, qurub-yaratmaq əzmini, bəşəri dəyərlərə sonsuz hörmətini, ən əsası, milli musiqimizə, mədəniyyətimizə sonsuz sevgisini göstərdiyini bildirdi. Festival çərçivəsində Şuşa şəhərində yerləşən Yaradıcılıq Mərkəzində açılan, Qarabağın tarixi, zəngin mədəniyyəti, məişəti, xüsusilə də Şuşanın tarixi və memarlığını əks etdirən 23 rəssamın əsərlərindən ibarət “Qarabağnamə” adlı sərgi də qonaqlarda bu qədim yurdumuz haqqında daha müfəssəl təəssürat yaratdı...

Bəli, Şuşa həm Xurşidbanu Natəvan, Molla Pənah Vaqif, Üzeyir Hacıbəyli, Bülbül kimi böyük dühaların vətəni, milli musiqi mədəniyyətimizin beşiyi, sənət məbədimiz, həm də 2020-ci ildən bəri zəfər simvolumuz, hər bir azərbaycanlının milli ruhunun təntənəsi, əyilməyən vüqarımız, qəhrəman əcdadlarımızın, Pənahəli xanın ənənələrinə sadiqliyimizin göstəricisidir. Dünyanın dörd bir yanına soraq salan, özündən könül dolusu danışdıran “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalının açılışında Qalib Liderin də dediyi kimi: ***“Şuşa mədəniyyət ocağı kimi tanınsa da, hazırda, eyni zamanda qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir. Çünki məhz Şuşanın azad olunmasından sonra işğalçılar tam anladılar ki, müqavimət göstərmək onlara heç nə verməyəcək və beləliklə, bu gün biz Şuşanı tam haqlı olaraq sülhün rəmzi kimi qiymətləndirə bilərik”.***

**Nail ƏSGƏROV**



# Prezidentin Şuşa mesajları kimə yönəlmişdi?



Danılmaz faktdır ki, bu gün Cənubi Qafqazdakı əsas proseslərin müəllifi və istiqamətvericisi Azərbaycandır. Çünki Azərbaycan cənab İlham Əliyevin müəllifliyi ilə regiondakı reallıqların əsas yaradıcısıdır. Nəyin necə baş verdiyini və ya verəcəyini isə dövlət başçısı özü müəyyənləşdirir və vaxtaşırı olaraq çıxışlarında buna yer verməklə həm də ictimaiyyətin ehtiyac duyduğu informasiyanı bütün dolğunluğu ilə təmin edir. Mayın 10-da, Ulu Öndər Heydər Əliyevin anadan olduğu gündə Şuşada, elə şuşalılarla görüşündə də bir çox məsələlərə toxunmaqla ictimai rəyi bir daha aydınlatdı. Prezidentin Şuşa sakinləri ilə görüşündə söylədiklərinin isə ünvanları fərqli auditoriyalar idi: Amerika səfirinin “diplomatik cığallığı”ndan tutmuş, erməniləşmiş Fransanın hərəkətlərinə xəbərdarlığadək və ya sərhədlərin hansı yolla müəyyən edilməsindən, revanşizmə hazırlıq istəyində olanların son aqibətinin necə olacağınadək çox məsələlərə toxunuldu. Elə çıxışın domino effekti yaratması da bundan qaynaqlanırdı.

Prezident çıxışında ilk olaraq II Qarabağ müharibəsinə toxundu, bildirdi ki, biz torpaqlarımızın, o cümlədən Şuşanın işğal altında qalması ilə barışmamışdıq və illərdir, bunun üçün hazırlaşırdıq, iqtisadiyyatımızı gücləndirir, güclü ordu potensialı yaradırdıq. Ən önəmlisi isə torpaqlarımızı öz canı-qanı bahasına alan yeni gənc nəsil yetişdirirdik. Və bu gün belə möhtəşəm qələbənin əldə olunmasında, ilk növbədə, şəhidlərimizə, qazilərimizə borcluyuq. Dövlət başçısı yenə də bu məsələyə toxundu ki, uzun illər mən Prezident kimi çalışırdım ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun və mənim fəaliyyətim göz qabağındadır, onlarla, bəlkə də, yüzlərlə görüşlər keçirilmişdir, danışıqlar aparılmışdır. Amma heç bir nəticə olmamışdır. Səbəbini isə dövlət başçısı belə açıqlayır: ***“Çünki Ermənistan, bir daha demək istəyirəm, bizim torpaqlarımızı əbədi işğal altında saxlamaq istəyirdi. Onların arxasında duran, guya ki, vasitəçilik edən ölkələr isə bu işğalı əbədi etmək istəyirdilər”.***

Son günlərin ən aktual məsələlərindən olan Qazaxın 4 kəndinin qaytarılması ilə bağlı məsələyə münasibət bildirən Prezident bildirdi ki, bir tələbimlə Qazaxın dörd kəndi bizə qaytarılır, bax belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar.

Buradan aydın olur ki, cənab İlham Əliyev bu tələbi birbaşa Paşinyanın qarşısına qoyub və qəti şəkildə tələb edib. Əks halda hərbi yola əl atacağını onun diqqətinə çatdırıb. Ermənistanın baş naziri də Azərbaycan Ordusunun işə qarışacağı halda hansı vəziyyətin yaranacağını təsəvvür etdiyindən bu tələb qeyd-şərtsiz icra olunub.

Azərbaycan Prezidenti çıxışında vaxtilə Minsk qrupunun üzvü olmuş Amerika və Fransanın hərəkətlərinə də qiymət verdi, eyni zamanda xəbərdarlıq etdi. Dövlət başçısı bildirdi ki, biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik. Bizə müharibə yox, torpaqlarımız lazım idi. Minsk qrupunun 28 ildəki fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdir. Onların fəaliyyətsizliyi təsadüfi deyildi və məsələni həll etmək istəmirdilər. Çünki bu torpaqları ermənilərə vəd vermişdilər. Necə ki sovet dövründə ermənipərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqları ermənilərə vəd vermişdilər və Fransa da, Amerika da, həmçinin.

Prezident sözlərinə davam edərək bildirir ki, bu gün də baxın bizə qarşı Fransa və Amerika əsas rol oynayırlar, xüsusilə də Fransa. Dövlət başçısının xəbərdarlığını isə olduğu kimi təqdim edirəm: ***“...Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil. Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Gəlir gəlsin, gəlmir, heç lazım da deyil. Guya onların gəlib-gəlməməsi ilə nəsə dəyişir, heç nə dəyişmir. Burada, bu torpaqda söz sahibi bizik. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik…”***

Hər iki ölkə arasında sərhəd xətlərinin müəyyənləşdirildiyi dövrdə cənab İlham Əliyevin növbəti dəfə bu məsələyə toxunması və şərtləri qarşı tərəfə diktə etməsi də xüsusi vurğulanmalıdır. Sitat: ***“İkinci Qarabağ müharibəsindən sonra biz Ermənistana demişik ki, gəlin sərhədi ədalətli müəyyən eləyək. Yox, istəmirsinizsə, onda biz deyəcəyik, harada istəyirik orada da sərhəd olacaq. Neyləyəcək, kimə zəng edəcək, lap 100 dəfə zəng etsin, nəticəsi nə olacaq? Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm”*** .

Hər halda bu mesaj təkcə Ermənistana yox, həm də qonşu ölkədəki revanşist proseslərə rəhbərlik edən xarici güclərə, eyni zamanda Fransa və Amerikaya ünvanlanmış ən sərt xəbərdarlıqdır! Azərbaycanın dövlət başçısı bu fikirləri hansısa rəsmi dövlət məmurunun və ya medianın dili ilə yox, birbaşa Özü çatdırır! Həm də çatdırmaqla qalmır, nəticəsinin nə olacağını da xəbərdar edir: burada söz sahibi bizik, bizimlə hesablaşmasalar peşman olacaqlar!

Sonda bir xatırlatma da bizdən olsun: Azərbayan Prezidentini xalqına sevdirən ən böyük səbəb verdiyi vədləri artıqlaması ilə yerinə yetirməsidir!

**✍ Səbuhi HƏSƏNOV**

## Postmüharibə mərhələsində sülh prosesinə aparan yol

### *və ya Azərbaycan Prezidentinin diplomatik məharəti*

Azərbaycan regionda hər zaman sülhsevər və xoş niyyəti ilə tanınıb. Hələ I Qarabağ müharibəsindən sonrakı 30 ildə dövlətimiz tərəfindən münaqişənin həlli ilə bağlı bütün sülh variantlarına, beynəlxalq təşkilatların çağırışlarına müsbət yanaşma ortaya qoyuldu. Məqsəd o idi ki, qan tökülməsin, müharibə, tələfat, dağıntı olmasın. Amma bütün bunların fonunda Ermənistanda bir neçə dəfə hakimiyyət dəyişikliyi olsa da, təfəkkürdə, düşüncədə yenilik olmadı. Hələ 2018-ci ilə qədər İrəvan küçələrində şou göstərib hakimiyyətə gəlmək eşqi ilə çırpınan Nikol Paşinyan ilk vaxtlar Qarabağ probleminin Ermənistanın boynundan asılan böyük bir yük kimi qiymətləndirsə də, baş nazir postuna gələn kimi qeyri-səmimi, destruktiv mövqe nümayiş etdirdi. Hadisələrin xronoloji ardıcıllığı da onu göstərirdi ki, Nikolun işi və əməli düz gətirmir. Azərbaycanın tarixi şəhəri Şuşada sərxoş vəziyyətdə yallı gedən, Xankəndidəki qondarma rejimi dəstəkləyən, onları separatçılığa sövq edən erməni baş nazir bu spekulyativ addımdan sonra “Qarabağ Ermənistandır və nöqtə” bəyanatı ilə, demək olar ki, bütün sülh danışıqlarının üstündən qalın bir xətt çəkdi. “Dənizdən-dənizə böyük Ermənistan” xülyası ilə yaşayan bir qövmün nümayəndəsindən bundan artığını gözləmək də, yəqin ki, sadəlövhlük olardı.

Sonrakı proseslərdən isə hər kəs xəbərdadır. 44 günlük Vətən müharibəsi, döyüş meydanındakı rəzil məğlubiyyət, təslimolma aktının imzalanması və nəticədə, “Qarabağ Azərbaycandır və nida” reallığının təntənəsi... Bütün bunları ona görə yada salırıq ki, sülhə nail olmaq, Qarabağ münaqişəsinin qan tökülmədən həlli məsələsi Azərbaycan üçün prioritet olsa da, eyni münasibəti qarşı tərəfdən görmədik. Vətən müharibəsindən sonra beynəlxalq təşkilat və qurumların təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderlərinin Praqa, Brüssel və Moskvada keçirilən çoxsaylı görüşləri zamanı Azərbaycan Prezidentinin əldə etdiyi ən böyük uğur ərazi bütövlüyümüzün tanınması məsələsi oldu. Praqada keçirilən görüşdə erməni baş nazir Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığını bəyan etsə də, bunu kağız üzərində rəsmiləşdirməkdən, sülh müqaviləsi imzalamaqdan imtina etdi. Burada diqqətçəkən ən mühüm məqam Praqa görüşündə Fransa Prezidenti Emmanuel Makronun guya sülh prosesində tərəf-müqabili kimi iştirak etməsi idi. Cənab Makron bu görüşdən sonra Azərbaycana qarşı açıq təhdid ritorikasından istifadə etməklə qalmadı, sonrakı illərdə Ermənistandakı revanşist meyilləri alovlandırmaq, Cənubi Qafqazı müharibə meydanına, bölgəni Afrika qitəsindəki müstəmləkələrinə çevirmək məqsədilə İrəvana davamlı silah-sursat göndərdi.

Biz ötən dövr ərzində Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilən çoxsaylı görüşləri də yaxşı xatırlayırıq. Amma bunu da yaxşı bilirik ki, həmin görüşlərdə elə də ciddi nəticəyə nail olunmadı. Yalnız bu məsələdə Azərbaycan Prezidenti, uzaqgörən lider, siyasi prosesləri ən yaxşı səviyyədə təhlil etmiyi bacaran ŞƏXSin – cənab İlham Əliyevin proqnozları özünü doğrultdu. O, postmüharibə dövründə keçirdiyi bütün görüşlərdə, verdiyi bütün müsahibələrdə bu fikri açıq dillə bəyan etmişdi ki, Azərbaycan və Ermənistan Cənubi Qafqazın iki qonşu dövləti kimi özləri sülh prosesinə yaxınlaşmalı və masa üzərindəki məsələləri həll etməlidir. Yəni burada hansısa üçüncü bir qüvvənin iştirakına, ağıl verməsinə ehtiyac yoxdur. Çünki böyük güclərin məqsədi heç də regionda siyasi sabitlik və rifah yaratmaq deyil. Fransa kimi dövlətin timsalında bir çox hallarda Ermənistanı sülh gündəliyindən uzaq tutmağa çalışan ölkə və diaspor təşkilatları münaqişə alovunu həmişə isti tutmağa çalışırdılar. Eyfelin ən yüksək mərtəbəsində kef çəkən hansısa milyarder ermənini, yaxud Qərb dövlətini müharibə meydanında məhv edilən erməni maraqlandırmır. Boğazdan yuxarı “vətənsevərlik” eşqinə düşən bu zadəganlar ancaq revanşizm duyğusundan qidalanırlar. Yəni İrəvana pulu göndər, özün çəkil dur kənarda. Təki sülh olmasın.

Qarabağ məsələsi ilə bağlı bütün xarici arzu və istəklər isə cənab İlham Əliyevin dəmir iradəsinə tuş gəldi. Azərbaycan Prezidenti müharibədən sonra qarşısına qoyduğu bütün hədəflərə nail oldu. Doğma xalqı qarşısında verdiyi bütün vədlərə bir-bir əməl etdi. Yağının ayağını torpaqlarımızdan birdəfəlik kəsdi, Xankəndidəki separatçı meyillərin kökünü qazıdı, qondarma rejimin tabutuna mismar vurub dəfn etdi, terroristbaşı şəxsləri isə Bakı təcridxanalarına gətirib çıxartdı.

İndi isə Ermənistanı sülhə məcburetmə prosesini uğurla reallaşdırır. Artıq bu istiqamətdə ilkin işlər həyata keçirilməkdədir. İki ölkə arasında sərhədlərin delimitasiyası üzrə komissiyanın yaradılması, işçi qrupun fəaliyyətində müsbət meyillərin qeydə alınması, son günlərdə isə ilk sərhəd dirəklərinin basdırılması, Qazax rayonunun işğal altında olan 4 kəndinin bir güllə belə atılmadan, Azərbaycan Prezidentinin uzaqgörənliyi sayəsində geri qaytarılması məsələsi cənab İlham Əliyevin siyasi qətiyyətinin, diplomatik məharət və bacarığının nümayişidir. Həmin kəndlərdə uzun illərdir, qanunsuz yaşayan ermənilər yenə də xarici diaspor təşkilatlarının fitnəsinə uyub nümayiş təşkil edir, yol bağlayır, din xadimləri xalqı genişmiqyaslı mitinqə çağırırlar. Guya N.Paşinyan 4 kəndi Azərbaycana qaytarmaqla xalqa xəyanət edir. Halbuki bu, sülh müqaviləsinin imzalanmasına doğru gedən çox düzgün bir ideyadır. Bu ideyanın müəllifi isə Azərbaycan Prezidentidir... Deməli, hər hansı bir vasitəçi, daha doğrusu, araqarışdıran, Qərbin məsləhəti olmadan da sülhə doğru yaxınlaşmaq, müsbət tendensiyaya varmaq olarmış.

Cənubi Qafqaza sülh, sabitlik və davamlı inkişaf gələcəksə, xalqların birgə yaşayışı təmin olunacaqsa, bu, cənab İlham Əliyevin siyasi iradəsi ilə reallaşacaq. Hərbi və siyasi təxribatlara uymaq, sərhəddə hər hansı bir gərginlik yaratmaq, böyük güclərdən silah-sursat umub qisas xəyalları qurmaq əvəzinə, Azərbaycan Liderinin diplomatik gedişlərini izləmək Ermənistan üçün daha faydalı olar. Çünki sülhdən başqa yol yoxdur. Ölkə başçısının bu il mayın 1-də Bakıda işə başlayan “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki çıxışında dediyi kimi: ***“Münaqişədən sonrakı vəziyyətə gəldikdə bir daha deyirəm, Azərbaycan çox fəal çalışır, Azərbaycan məhz Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü. Azərbaycan məhz o ölkədir ki baza prinsipləri, hətta sülh sazişinin layihəsini hazırladı”.***

**Muxtar RZAZADƏ**




# İğdır-Naxçıvan təbii qaz kəmərinin tikintisi qısa müddətdə tamamlanacaq

Mayın 14-də "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təbii qaz sahəsində əməkdaşlıq Sazişi" imzalandı. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar tərəfindən imzalanmış sazişə əsasən iki qardaş ölkə bölgədə enerji təhlükəsizliyinin təmin edilməsi və enerji təchizatı mənbələrinin şaxələndirilməsi üzrə əməkdaşlığı dərinləşdirəcəklər. İmzalanma mərasimində sənədin qaz hasil, nəql və istehlak edən ölkələr, onların vətəndaşları və müəssisələri üçün qarşılıqlı fayda verəcəyi də qeyd olundu. Həmçinin görüş zamanı tərəflər, səmərəli enerji əməkdaşlığı, birgə reallaşdırılan layihələr və yeni tərəfdaşlıq imkanlarını müzakirə etdilər. Həyata keçiriləcək yeni iş birliyi layihələrinin Azərbaycan və Türkiyənin strateji maraqlarına xidmət edəcəyinə və hər iki ölkəyə qarşılıqlı fayda gətirəcəyinə əminlik ifadə olundu.

Bu görüşdə toxunulan mühüm məsələlərdən biri də İğdır-Naxçıvan təbii qaz boru kəmərinin tikintisi ilə bağlı oldu. Məlum olduğu kimi, İğdır-Naxçıvan boru kəmərinin təməli 2023-cü il sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulub. Dövlət başçıları həmin gün mətbuata bəyanatlarında yeni infrastrukturun əhəmiyyətini də xüsusi olaraq vurğulamışdılar. Azərbaycan Prezidenti İğdır-Naxçıvan qaz kəmərinin çəkilişini ölkələrimiz arasında qardaşlıq münasibətlərinin tarixində önəmli hadisə kimi dəyərləndirərək bunun əlaqələrimizə yeni təkan verəcəyini, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcəyini bildirmişdi. Türkiyə Prezidenti isə bəyanatında İğdır-Naxçıvan qaz kəməri layihəsinin iki ölkə arasında enerji sahəsində ortaqlığı daha da dərinləşdirəcəyi kimi, Avropanın da enerji təhlükəsizliyinə töhfə verəcəyini qeyd etmişdi. Təsadüfi deyil ki, Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar Azərbaycanın iqtisadiyyat naziri ilə görüşündən sonra X platformasında yazdı ki, İstanbulda görüşdən sonra dost və qardaş ölkə Azərbaycanla təbii qaz sahəsində yeni əməkdaşlıq müqaviləsi imzaladıq. "Müqavilə çərçivəsində biz Azərbaycan və Türkmənistan qazını Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyə çatdırmaq barədə razılığa gəldik. Biz həmçinin TANAP və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin imkanlarını artırmaq və Avropa ölkələrinə daha çox qaz çatdırmaq üçün birgə işləmək qərarına gəldik. Görüş münasibətilə ölkələrimiz arasında birbaşa təbii qaz əlaqəsini təmin edəcək İğdır-Naxçıvan təbii qaz boru kəmərini ən qısa zamanda başa çatdırmaq əzmində olduğumuzu da vurğuladıq", – deyə türkiyəli nazir bildirdi. Həmçinin türkiyəli nazir qaz kəmərinin bu ilin sonunda, ya da gələn ilin əvvəlində istifadəyə veriləcəyini qeyd etdi.

Xatırladaq ki, İğdır-Naxçıvan qaz kəməri üzrə Anlaşma Memorandumu 2020-ci il dekabrın 15-də Ankarada imzalanıb. Layihə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Türkiyənin BOTAŞ şirkəti tərəfindən icra olunacaq. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən isə İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb.

Məlumat üçün bildirək ki, hazırda Naxçıvan Muxtar Respublikasının illik qaz istehlakı 260-300 milyon kubmetr ətrafındadır. İstifadədən sonra isə boru kəməri ilə gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək mümkün olacaq. Gələcəkdə isə kəmərin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkün olacaq. Ən önəmlisi isə yeni qaz kəməri Naxçıvanın qaz təchizatını şaxələndirməklə yanaşı, onun bir mənbədən asılılığını da aradan qaldıracaq.

✍ **Səbuhi HƏSƏNOV**

# Belarus və Azərbaycan zamanın sınağından çıxmış etibarlı dostlardır



Son günlər dünya siyasətində baş verən və bir-birinin tamamilə əksi olan hadisələr göstərir ki, hər yerində həyat qaynayan bu gözəl planetimizin bütün xalqlarının sülh içində bərabər yaşaya bilməsi üçün ağıl, istək və qarşılıqlı etimad qədər dəyərli heç nə yoxdur. Ölkələr arasındakı tarixi dostluq onların liderləri timsalında daha da möhkəmləndikdə bu hər bir insana öz həyatını xoşbəxt yaşaması üçün ən gözəl şanslar qazandırır. Üç bir yanımızdakı qanlı müharibələrə baxmayaraq, ölkəmizə öz dostluq və qardaşlıq əllərini uzadan dünya liderlərinin Azərbaycandan verdiyi mesajlar, bəlkə də, bu qarışıq dönəmdə dünyanın ehtiyacı olduğu ən səmimi ismarıclardır.

Bu mənada, mayın 16-da Belarus Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə dövlət səfəri çərçivəsində aparılan görüşlər zamanı hər iki ölkənin dövlət başçılarının səsləndirdiyi fikirlər, hökumətlərarası əməkdaşlıq çərçivəsində bağlanan yeni müqavilələr 30 ildən artıq bir müddətdə bir-biri ilə sıx dostluq edən və son 20 ildə daha da möhkəmlənən əlaqələrin yeni mərhələsindən xəbər verir. Belarus dövlət başçısının Azərbaycan Respublikasına baş tutmuş son dövlət səfəri, burada keçirilən geniştərkibli görüşlər zamanı əldə olunmuş razılaşmalar iki ölkənin zəngin dostluq əlaqələrindən qaynaqlanan tarixi təcrübənin indi nə qədər əhəmiyyətli olduğunu bir daha ifadə edir. Hansı ki sovet hakimiyyəti dağıldıqdan sonra MDB məkanında yaşanan təcrübələr heç də həmişə ürəkaçan olmayıb müxtəlif qiyamlar, dövlət çevrilişləri cəhdləri və üzdəniraq separatçılıqlarla dolu olmuşdur. Qərb dairələrinin soyuq müharibə illərində SSRİ-yə qarşı yığılıb qalmış neqativ münasibətləri nəticəsində bu ərazilərdə siyasi sabitliyi qarışdırmaq əməlləri və daha sonra dırnaqarası vasitəçi səyləri vəziyyəti daha da ağırlaşdırmış, bütün bölgəmiz ümumi inkişafdan geri düşmüşdür.

Erməni separatizmini qızışdırıb 30 il ərzində Azərbaycan torpaqlarının işğalına səbəb olmuş belə dairələr bədnam "ATƏT-in Minsk qrupu" adı altında hələ bir də utanmadan Ermənistanın Azərbaycana qarşı təcavüzünü unutdurmağa və münaqişəni işğalçının xeyrinə həll etməyə çalışmışdı. Bu qrupdakı ABŞ, Fransa və Rusiya üçlüyünün on illər uzunu həyata keçirdiyi bu mənfur siyasətə son qoyan və torpaqlarını düşməndən azad edən müzəffər Azərbaycan Ordusunun və onun Ali Baş Komandanının qətiyyəti bir daha göstərdi ki, kənar imperialist qüvvələr olmasa, nəinki Cənubi Qafqazda, dünyanın bütün bölgələrindəki ölkələr sülh içində yaşamağa qadirdirlər. Elə Belarus dövlət başçısının da Azərbaycana son səfəri zamanı parlaq qələbəmiz münasibətilə ifadə etdiyi səmimi sözlər, Qarabağın yenidən inşası məsələsində ölkəmizlə həmrəy olması və ölkəsinin hər sahədə bizimlə geniş əməkdaşlığa hazır olması barədə səsləndirdiyi fikirlər də illər boyu, həm də atalardan gələn dostluğun həmişə etibarlı olmasını, coğrafiyadan asılı olmayaraq, eyni dili başa düşən xalqların iqtisadi və mədəni əlaqələri üçün heç bir əngəl olmadığını bir daha nümayiş etdirdi.

Azərbaycan və Belarus keçmiş ittifaqın üzvləri kimi həmişə bir-birinə yaxın olmuş dövlətlərdəndir. Müstəqillik illərində dövlət başçıları səviyyəsində keçirilmiş çoxsaylı təmaslar isə Bakı-Minsk körpüsündə bütün sütunları daha da sağlamlaşdırmış, nəticədə, ATƏT-in Minsk qrupundan fərqli olaraq rəsmi Minskin daim Bakının yanında olmasını təmin etmişdir. Ölkələrimiz arasında hərbi sahədəki əməkdaşlıqdan tutmuş turizm əlaqələrinin genişləndirilməsinə qədər bütün sahələrdəki əlaqələr strateji səviyyəyədək yüksəlmişdir. Belarus dövlət başçısının Bakıda Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın məzarlarını dərin ehtiramla yad etməsi və Şəhidlər xiyabanını ziyarət etməsi bu dostluğun qardaşlıq səviyyəsində də bir təcəssümüdür. İki ölkənin şəhərləri arasında qardaşlaşma əlaqələrinin yaradılması və Aleksandr Lukaşenkonun Prezident cənab İlham Əliyevlə birgə Füzuliyə və Şuşaya gələrək buradakı reallıqlarla tanış olması isə dost ölkənin Qarabağın yenidən inşasında təkcə sözdə deyil, əməldə də Azərbaycanın yanında olduğunu və dövlətimizin bu çətin vəzifəni bacaracağına əminliyini ifadə edirdi.

Bəli, Belarus dövlət başçısının onu həmişə narahat edən ölkəsinin yaxın sərhədlərindəki qanlı Rusiya-Ukrayna müharibəsinin yaratdığı problemlərə baxmayaraq, Cənubi Qafqazın lider ölkəsinə dövlət səfəri zamanı bu bölgənin sabitliyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin üzərinə düşən missiyanın ağırlığını ifadə etməsi olduqca mühüm hadisə kimi yadda qalacaq.

Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə verilmiş dövlət ziyafətindəki mədəniyyət dili ilə dünyaya verilən mesajlar isə dünyada sülhü istəməyən bütün qüvvələr üçün bir başqa dərs idi. Ziyafət zamanı orkestr səhnəsinin fonunda nümayiş etdirilən rəsmlərdəki Belarus mənzərələri ilə yanaşı, Naxçıvan və Qarabağa da virtual səyahət etmək imkan qazanan qonaqlar sənətin, musiqinin dili ilə də ölkəmizin bütövlüyünün və xalqımızın mədəniyyətinin və qonaqpərvərliyinin bir daha şahidi oldular. Ziyafətdə təqdim olunan konsert proqramı zamanı insanın ruhunu dincəldən musiqi əsərlərini ifa edən mahir sənətçilərimizin sondakı "Cənnətim Qarabağ" və "Azərbaycan" mahnılarını səsləndirdiyi zaman üzlərindəki xoşbəxtliyi də görməyə dəyərdi.

✍ **Əli CABBAROV**

# Əməkdar rəssam Həmzə Sadiqovun 75 illiyi münasibətilə fərdi yaradıcılıq sərgisi açılıb







Mayın 17-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Əməkdar rəssam Həmzə Sadiqovun 75 illiyi münasibətilə fərdi yaradıcılıq sərgisi açılıb.

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş "Rənglərin harmoniyası" adlı sərgidə əvvəlcə Ümummilli Liderimizin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva rəssamın həyat və yaradıcılığından bəhs edib, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Fazil Mustafanın və komitə üzvlərinin təbriklərini çatdırıb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Anar İbrahimov yubilyarı təbrik edərək bildirib ki, Əməkdar rəssam Həmzə Sadiqovun taleyi, həyatı həmişə vətənə bağlı olub. Bunu təkcə yaradıcılığında deyil, çalışdığı vəzifələrdə, fəaliyyətində də hər zaman sübut edib.

Həmzə Sadiqovun ailəsi ilə birlikdə ötən əsrin 90-cı illərində Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizin davamlı inkişafı, xalqımızın rifahı naminə apardığı mübarizənin ön cərgələrində olduğunu diqqətə çatdıran Anar İbrahimov Sədərək döyüşlərindəki fədakarlıqlarını yüksək qiymətləndirib, bu mövqeyə görə yubilyara və onun ailəsinə təşəkkür edib. Həmzə Sadiqovun yaradıcılığını təhlil edən Ali Məclisin sədr müavini Əməkdar rəssamın realizm üslubunda yaratdığı əsərlərin Naxçıvana yeni bir baxışla baxmağa böyük imkan yaratdığını bildirib. Anar İbrahimov rəssamın yaradıcılığından hələ çox gəncin ilham alacağına əminliyini ifadə edib, Həmzə Sadiqova yeni yaradıcılıq uğurları arzulayıb.

Sonra yubilyara Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi adından təşəkkürnamə təqdim olunub.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin, Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kayanın, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzovun, Milli Məclisin deputatı Cəbi Quliyevin, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayevin, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyevin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidovanın, Memarlar Birliyinin sədri Heydər Əhmədovun və Xalq rəssamı Hüseynqulu Əliyevin çıxışları dinlənilib.

Əməkdar rəssam Həmzə Sadiqov əməyinə verilən diqqətə görə minnətdarlıq edib və tədbirin ona yeni yaradıcılıq stimulu verdiyini bildirib.

Sonra sərgiyə baxış olub.

Sərgidə Əməkdar rəssam Həmzə Sadiqovun müxtəlif janrlarda ərsəyə gətirdiyi 60-a yaxın əsəri nümayiş olunub. Əsərlərdə Naxçıvan motivi üstünlük təşkil edib.

# Türkiyə Respublikasının Ticarət Nazirliyi və Şərqi Anadolu İxracatçılar Birliyinin nümayəndə heyəti Naxçıvana səfər edib





Türkiyə Respublikasının Ticarət Nazirliyinin departament rəhbəri Mustafa Yavuzun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında ikigünlük səfərdə olub.

Səfər çərçivəsində qonaqlar Ümummilli Liderimizin Naxçıvan şəhərindəki abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təşəbbüsü, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Azərbaycanın Türkiyədəki Ticarət Nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə "Azərbaycan-Türkiyə ticarət əlaqələri: Naxçıvanın ixrac imkanları" mövzusunda görüş keçirilib. Görüşdə hər iki tərəfdən rəsmi şəxslər və sahibkarlar iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli qonaqları salamlayaraq iqtisadi-ticarət tərəfdaşlığının inkişafı üçün geniş potensial olduğunu vurğulayıb, bugünkü görüşün, aparılan müzakirələrin biznes dairələri arasında əlaqələrin genişləndirilməsində əhəmiyyətini qeyd edib.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" barədə məlumat verən Samir Seyidəhmədli bildirib ki, proqramın əsas qayələrindən biri də sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırmaq, azad iqtisadi zona yaratmaqla Naxçıvanı əsas sərmayə mərkəzinə çevirməkdir. Türkiyə nümayəndə heyətinin Naxçıvana 2 günlük səfər çərçivəsində muxtar respublikanın bütün potensialı ilə yaxından tanış olmaları, sözsüz ki, yeni investisiyaların yatırılması baxımından təkan rolunu oynayacaq.

Görüşdə Azərbaycanın Türkiyədəki ticarət nümayəndəsi Tamerlan Tağıyev Azərbaycan-Türkiyə əməkdaşlığının inkişafının önəmini vurğulayaraq bu əlaqələrin yüksələn xətlə inkişaf etdiyini qeyd edib. Tamerlan Tağıyev Azərbaycanda həyata keçirilən davamlı islahatlar, əlverişli biznes və investisiya mühiti barədə qonaqlara ətraflı məlumat verib, iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi istiqamətləri diqqətə çatdırıb.

İkitərəfli əməkdaşlıqda ticarət sahəsinin əhəmiyyətini vurğulayan Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Abbas İsmayılov qeyd edib ki, Naxçıvan və Türkiyə arasında ticarət dövriyyəsinin artım tendensiyası davam edir. Bildirilib ki, 2024-cü ilin ilk 4 ayı ərzində qardaş Türkiyə muxtar respublikanın xarici ticarət dövriyyəsində ilk yeri tutub, Türkiyəyə ixracın həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 28 faiz artıb. Ümumilikdə, Naxçıvanın xarici ölkələrlə ticarət dövriyyəsinin ümumi həcmi 32,2 milyon dollar olub ki, ticarət dövriyyəsində Türkiyənin payı 52,7 faiz təşkil edib. Naxçıvandan Türkiyəyə mineral sular, vafli məmulatları, tütün məmulatları, elektrik enerjisi, mebel, tikinti materialları, travertin daş məhsullarının ixracı həyata keçirilib. Türkiyənin Naxçıvana ixracatında isə ərzaq məhsulları, məişət elektrik əşyaları, mebel, tekstil, əczaçılıq məhsulları, müxtəlif texnikalar üstünlük təşkil edib.

Qeyd olunub ki, Naxçıvanda fəaliyyət göstərən xarici kapitallı şirkətlərin 78 faizini Türkiyə şirkətləri təşkil edir. Hazırda muxtar respublikada iqtisadiyyatın müxtəlif sahələrində Türkiyə iş adamları ilə birgə və ya müştərək əsaslarla yaradılmış 146 sahibkarlıq subyekti qeydiyyata alınmışdır ki, bunun da 55 faizi və ya 80-i aktiv fəaliyyət göstərir.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya, Türkiyə Respublikasının Ticarət Nazirliyinin departament rəhbəri Mustafa Yavuz görüşün yüksək səviyyədə təşkilinə, qonaqpərvərliyə görə məmnunluqlarını ifadə ediblər, iqtisadi əməkdaşlığın inkişafı perspektivləri barədə fikirlərini bölüşüblər. Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılmasında sərhədyanı ticarətin yarada biləcəyi imkanlar və digər önəmli məsələlər ətrafında çıxış ediblər. Çıxışlarda bundan sonra da sərhədyanı ticarətlə bağlı müzakirələrin davam ediləcəyi və konkret addımların atılmasının vacibliyi vurğulanıb.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov hər iki ölkənin iş adamlarının faydalı əməkdaşlıq münasibətlərindən söhbət açıb.

Sonra Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşları muxtar respublikanın iqtisadiyyatı, kənd təsərrüfatı, turizm və ixrac potensialı haqqında təqdimatlar edib, ətraflı məlumatlar veriblər.

# Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bir sıra qərarları ləğv edilib

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 may tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta üzrə sığorta ehtiyatlarının yaradılması və onlardan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Qərarı ləğv edilib.

Bundan başqa, "Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilmiş və bir sıra qərarlar ləğv edilmişdir. Belə ki, "Naxçıvan Muxtar Respublikası ərazisində neft məhsullarının topdan və pərakəndə satış qiymətləri, elektrik enerjisinin, təbii qazın, su və suyun axıdılmasının, avtonəqliyyatda sərnişin daşınmanın və Dövlət Yol Polisi İdarəsinin göstərdiyi xidmətlərin tariflərinin (qiymətlərinin) təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 8 yanvar tarixli Qərarı, "Bakı-Naxçıvan-Bakı marşrutu ilə Naxçıvan Muxtar Respublikasının tələbatını ödəmək üçün neft məhsulları və təhlükəli yüklər daşıyan dörd və daha çox oxu olan yük avtomobillərinə kompensasiya ödənilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2007-ci il 12 iyun tarixli Qərarı, eləcə də "Ölkə daxilində istehsal edilən və qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən avtomobil benzinlərinin və dizel yanacağının Naxçıvan Muxtar Respublikasına daşınmasına (təchizatına) görə Naxçıvan Muxtar Respublikasının büdcəsindən subsidiyanın verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin 2022-ci il 8 sentyabr tarixli Qərarı ləğv edilmişdir.

# "BOOKFEST"in fəalları mükafatlandırılıb




Naxçıvan şəhərində təşkil olunan dördgünlük "BOOKFEST" Kitab festivalında fəaliyyətləri ilə fərqlənən təşkilatçıların, media tərəfdaşlarının, könüllülərin, etüd-rəsm sərgisində iştirak edən tələbə və şagirdlərin mükafatlandırılma mərasimi keçirilib.

Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən tədbiri giriş sözü ilə İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucova açaraq "BOOKFEST" Naxçıvan Kitab sərgisinin əhəmiyyətindən danışıb.

Bildirib ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və "TEAS Press" Nəşriyyat Evinin təşkilatçılığı ilə 8-11 may tarixlərində Naxçıvan şəhərində keçirilən Kitab festivalı hər kəs tərəfindən rəğbətlə qarşılanıb. Festival çərçivəsində müəlliflərlə oxucular arasında maraqlı görüşlər keçirilib, panel müzakirələri olub, kitabların endirimli qiymətlərlə satışı təşkil edilib.

Sonra sərginin keçirilməsində fərqlənən təşkilatçıların, media tərəfdaşlarının və könüllülərin mükafatladırılma mərasimi olub.

Qeyd edək ki, "Şərq qapısı" qəzetinin üç əməkdaşı da tədbirdə təltif olunub. Tədbirin təşkilatçısı qismində Fariz Əhmədov, etüd-rəsm sərgidə və media tərəfdaşlığındakı iştirakına görə Aidə İbrahimova və SMM və media tərəfdaşlığındakı fəallığına görə Zülfüqar Qurbanlı təltif edilib.

✍ Aidə İBRAHİMOVA



# Haradadır bu Əlincə qalasının qapısı?

## *“Bu qalanın hər yeri çölündəkilər üçün divar idi, içindəkilər üçün qapı”*

Naxçıvana ilk gəlişimdir. “TEAS Press”in və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəvətilə iştirak etdiyim “BOOKFEST” Kitab sərgisi muxtar respublikanın 100, Ümummilli Liderin 101 illiyinə həsr olunub. Bakıda hava limanında yazıçı, professor Zahid Xəlil və xanımı ilə qarşılaşırıq. Saat səhər $5^{00}$-dur. Hamı yatıb, biz oyaq. Saat $8^{00}$-da Naxçıvana enirik, sakitlikdir. Amma bu sakitlik “insan yoxdursa, problem də yoxdur” zehniyyətindən doğan inzibati sakitlik deyil, bu, bir memari sakitlikdir.

Günorta saatlarında naxçıvanlı dostlarla şəhərin küçələrində qısa bir təkərli gəzintiyə çıxırıq. Sirr öz-özünə açılır: Naxçıvan özünün memari səliqəsiylə bir alman şəhəri görkəmiylə üzə çıxır. Sağ əlin qalan şəhərlərimizin başına. Daha sonra bu səliqə-sahmanı naxçıvanlıların davranışlarında, lap dərinə getdikcə mənəviyyatlarında hiss edirəm. Bu hissin təsdiqini təhlükəsizlik orqanında işləyən tələbə yoldaşıma verdiyim ilk sualla naxçıvanlıların öz dilindən eşitmək istəyirəm: “Naxçıvanda cinayətkarlıq hansı səviyyədədir?” “Qətl hadisələri nadir hallarda olar, ya olmaz, amma bir-iki toyuq oğrusu varımızdı”.

Səbəb: blokadanın yaratdığı mənəvi homogenlik. Yəhudilər bu mənəvi homogenliyi qorumaq üçün özlərini musəviliklə blokadaya alıb bəşərdən təcrid etmişdilər dörd min il öncə.

Naxçıvanı və naxçıvanlıları müşahidə etdikcə sosial mediada yaradılan və millətə təqdim olunan Naxçıvan obrazının nə qədər uydurma olduğunun fərqinə varıram. Hər yerdə sifətindən narazılıq yağan, illərdir, “ayaqladığı zülm” vücuduna yansıyan naxçıvanlını axtarıram. Deyəsən, görməyim deyə bütün narazı naxçıvanlıları xüsusi qapalı düşərgəyə doldurublar. Naxçıvanda Anadolu şəhərlərinə xas olan istiqanlı bir doğmalıq hökm sürür. “Hanı bu şəhərin dəlisi?” – deyib altdan-altdan öz şəhərinin dərd-sərini küçələrdə satan o casusu axtarıram. Çünki hər dəli öz şəhərinin taleyinin elçisidir. Bir şəhərdə dəli yoxdursa, demək ki, o şəhərdə qanun mənəvi hadisəyə çevrilə bilib. Azərbaycanın heç harasında qanun mənəvi hadisə deyil. Vasili Veliçko, hətta bütün Qafqaza aid edirdi bunu və səbəbini Qafqazın tarixən mərkəzi dövlətlərin ucqarı olmasıyla bağlayırdı. Görünür, Naxçıvanda qanunun mənəvi hadisəyə çevrilməsi Atabəylər dövlətindən gəlir.

Bunu hiss etmək üçün Naxçıvanın ətrafındakı dağdərədə dolaşmaq lazımdı. Naxçıvan dörd bir tərəfdən tarixlə mühasirə olunub. Sufi təkkələri, türbələr, Əlincə qalası, Bəzz qalası, Araz çayı…

Naxçıvanlı dövlətçi gücünü tarixlə dolu bu dağ-dərədən alır. Məsələn, mən zərdüştilərin və sufilərin sükut qüllələri haqqında oxumuşdum, amma təsəvvürümün yanlış olduğunu Nəiminin qəbri üzərində tikilmiş (təəssüf ki, “yevroremont” olunmuş) türbənin həyətindəki qüllələri görəndə başa düşdüm. Yazılı tarixə çox barmaq olunur, amma daşlaşmış tarixi zamanın tələbinə uyğunlaşdırmaq mümkün deyil. Naxçıvanda Nuhdan üzübəri tarixin hansı dövrünü axtarsan bir daşına, saxsısına, heroqlifinə rast gələcəksən. Çaydaşından çox Teymurun, Ağqoyunluların, Qaraqoyunluların yadigarı olan daşlar var. Naxçıvanlılar hər yeri tarixlə mənalandırıblar və danışıqlarından hiss olunur ki, bundan böyük zövq alırlar. Hətta yol gedərkən “Şərq qapısı” qəzetinin xanım əməkdaşı yolun qırağından bir ovuc kaşı qırığı tapıb gətirdi və tarixin bir dövrünə bağladı. Tarixlə bu qədər iç-içə yaşamaq, əlbəttə, onlara psixoloji güc verir. Naxçıvanda dəliyə rast gəlməməyimin səbəbi də buradakı xalqın psixoloji gücünü mistikadan deyil, tarixdən almasıyla bağlıdır. Tarixin mənşəyi insanın özünə olan inancıdır. Bu torpaqlarda tarix mistikanı orta əsrlərdə şaqqalayıb. Teymur və Nəiminin mübarizəsində.

*Yazmaqla bitməz!*

*Yenidən görüşmək ümidiylə…*

**Aqşin YENİSEY**



# Səninləyəm, qədim diyar

Naxçıvan... Min illərin keşməkeşli tarixinə şahidlik edən bir əzəmət, bir möhtəşəmlik, bir qəhrəmanlıq, bir qürur, bir cəsarət və mərdlik qalasıdır. Daşlarında tarixlər yatan alınmaz QALA... Bu qalanın hər daşı, hər torpağı, sözün həqiqi mənasında, ayrı bir hünər, ayrı bir qəhrəmanlıq, ayrı bir vüqarlı insan ömrüdür. Havasında qəhrəmanların nəfəsi var. Torpağında bu qəhrəmanların zərrəsi var, ruhunda dəmir iradəli insanların əzmi var. Səması insanlarının qəlbi kimi genişdir. Qollarını qulac-qulac açsan da, bu genişliyi qulaclarına sığışdıra bilmirsən. Günəşi boldur, elə boldur ki 12 ayın hər gününə yetə bilir, qışın qar-çovğununda belə ılıqlığı insanın ruhunu isidir. Yağmuru bol suludur, elə sulu ki yayın istisində dodaqları cadar-cadar olmuş torpaqlara yetəcək qədər çox suludur. Qarı çox bəyazdır, ağbirçək nənələrin, ağsaqqal babaların saçlarından belə bəyaz.



Dağlarıyla, düzləriylə gözəlliklər oylağıdır. Təbiəti, sözün əsl mənasında, min tamaşadır. Çünki bir tərəfdə başıqarlı dağlar ətəyində lalə, bənövşələr, bir tərəfdə leysan yağan qapqara buludlar və ardınca gələn Günəş yağışdan sonra rəngarəng göyqurşağıyla səmaya əsrarəngiz tacını taxır. Təbiətinə gözəllik qatan uca dağları insanlarının xarakteridir. Bu dağlar bizim kimliyimiz, bizim varlığımız, bizim soykökümüzdür. Biz bu dağlara baxarkən əzəmətin və gücün rənginin ahəngdarlığını görürük. Əlincə qalasının sərt qayaları, daşları, torpağı, ağacları, çiçəkləri vərəqlənib səhifə-səhifə açılır və gözümüz önündə canlanan bu tarixə zaman-zaman qürurla, sevinclə, hünərlə, eşqlə, yanğıyla baxırıq, qayaların hər qatının məğrurluğunu hiss edirik, hər qatının ayrı bir hekayəsini öyrənirik.

Əshabi-kəhf dağlarında yatan, yüzillikləri soraqlayan qədim inancı, ilahi gücün ucalığını, mistik auranın vəhdətini görürük. Naxçıvanın gərdanında Xan Araz kimi bir gözəllik var. Bu gözəlliyin hər damlasında Vətən həsrəti, Vətən eşqi alovlanıb sağındakı, solundakı həyatlara işıq saçır. Naxçıvanın Batabat gölü kimi bir gözəlliyi var ki, bu gölün gözəlliyi rəssamların rəngarəng fırçasından tablolara axaraq çərçivələrdə yeni-yeni həyatlara sahib olaraq göz oxşayır, bu gölün gözəlliyi şairlərin ilham mənbəyidir. Naxçıvanın hər addımı bir tarixdir. Nuh zamanından bu günə gələn min illərin qoruyub hifz etdiyi ulu tarix.

Mərdlik, cəsarət, məğrurluq bərabərində Naxçıvan durur... 14 il Əlincəqalanın düşmənə qarşı direnişi məhz bu məğrurluğun ifadəsidir.

Kimliyindən asılı olmayaraq, hər kəs, istər Naxçıvanda doğulub böyüyən olsun, istər Azərbaycanın hər hansı bir şəhərində böyüyən, istərsə də dünyanın hər hansı bir ölkəsindən gələn qonaq Naxçıvanı tarixiylə, təbiətiylə, təbiət gözəllikləriylə, adət-ənənələriylə, dadlı-ləzzətli təamlarıyla, yeraltı, yerüstü sərvətiylə, daşıyla-torpağıyla, şəhəriylə-kəndiylə, qonaqpərvərliyiylə, insanıyla, insanlığıyla və ən əsası, insanın zəngin ruhuyla sevir və bu torpağa aşiq olur.

Naxçıvan... Sən, elə bir cahansan ki sənin hər anın, sahib olduğun hər şey çox qiymətlidir və bu bütün nəsillər üçün belə görünəcək... 100 yaşlı qocaman diyar, üzündəki qırışların hər qatında yatan izlər sənin zəngin, mənəvi dəyərlərindir. Bu dəyərlər vərəq-vərəq oxuyub bitirə bilmədiyimiz bir sanballı salnamədir, bu dünənində mərdlik, bu günündə zəfər, sabahında gözəl, günəşli gələcəkləri olan bir diyarın salnaməsidir. Bu hər zaman kəsiyi üçün belə olub və belə də olacaqdır, bizdən öncə də, bizimlə və bizdən sonra. Naxçıvan qərinələri, əsrləri məğrurluqla yola salan Möminə xatın türbəsində yaşayan minlərlə Əcəmi Naxçıvanilər, Məhəmməd Cahan Pəhləvanlar, “Mənim Tanrım gözəllikdir, sevgidir” misrasında ölümsüzlük qazanan Hüseyn Cavidlər, “Dumanlı Təbriz”i oxuyanda Məmməd Səid Ordubadilər, “Bir könül sındırmışam” mahnısının həzin notlarını dinləyəndə İslam Səfərlilər, “Poçt qutu”sunu oxuyanda Cəlil Məmmədquluzadələr, Novruzəlilər, “Varım, yoxum, səninləyəm”, – deyən Məmməd Arazlardır.

Naxçıvan, doğma diyarım! Çox şanslıyam yurdun bir parçası olduğuma və qoynunda böyüyüb boy atmama izin verdiyin üçün. Alqış sənə, alqış sənin varlığını qoruyub bizə miras verənlərə.

Alqış olsun 100 yaşlı qocaman, yaşlanmayan Ulu yurda! Qürumsan, gözəl Vətən!

**Samirə ƏKİNÇİ**

***ABŞ, Florida, Tampa***

*Məqalə “Şərq qapısı” qəzetinin elan etdiyi “Naxçıvan 100 ildə” yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür*

# “Naxçıvan məktəblilərin gözü ilə” rəsm sərgisi açılıb



Mayın 15-də Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə töhfə kimi “Naxçıvan məktəblilərin gözü ilə” adlı rəsm sərgisi açılıb. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sərgidə Naxçıvan Muxtar Respublkası Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Rəmzi İbrahimov, “Şərq qapısı” qəzetinin məsul katibi Muxtar Məmmədov və “Məktəbli” qəzetinin təsisçisi Pərvin Məmmədov çıxış ediblər.

Çıxışlarda rəssamlıq sənətinə maraq göstərən uşaqlar üçün bu cür tədbirlərin əhəmiyyəti qeyd olunub. Sərgi rəssamlığa marağı olan gənclərin yaradıcılığının üzə çıxarılması, onların yaratdığı incəsənət dünyasına səyahət etmək, eyni zamanda qədim Naxçıvanımızın zəngin mədəniyyətini tanıtmaq imkanı baxımından yüksək qiymətləndirilib. Sərgilənən əsərlər sayəsində Naxçıvanın bugünkü və gələcək nəsillərinin zəngin irsimizi necə qəbul etdiyini və onu necə ifadə etdiklərini görmək imkanı yaradır. Sərgidə yer alan hər bir əsər məktəbli rəssamların dünyagörüşünü, daxili aləmini və yaradıcılıq potensialını əks etdirir.

Qeyd olunub ki, istedadlı uşaqların inkişafı üçün muxtar respublikada hərtərəfli şərait yaradılıb. Təşkil olunan sərginin bir məqsədi də gənc nəsildə incəsənətə maraq oyatmaq, onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, məktəblilərdə bədii düşüncə tərzini və yaradıcılıq duyğularını formalaşdırmaqdır.

Sonra sərgidə əsərləri nümayiş etdirilən məktəblilərə təşəkkürnamələr təqdim edilib.

Baxış zamanı qeyd edilib ki, sərgidə muxtar respublika məktəblərinin fırça həvəskarlarının 90-dan çox əl işi nümayiş etdirilir. Rəsmlərdə Naxçıvanın ecazkar təbiət mənzərələri, tarixi-mədəni abidələri, şanlı qələbəmizi əks etdirən motivlər rənglərin dili ilə ifadə olunub.

Qeyd edək ki, sərgi “Məktəbli” qəzeti və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə baş tutub.

# Tələbələr “Şərq qapısı” qəzetində təcrübə keçirlər

“Şərq qapısı” qəzetində təcrübə proqramı keçən Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə IV kurs tələbələri əvvəlcə redaksiyanın iş şəraiti ilə tanış olublar. Qəzetin baş redaktoru Sara Əzimova tələbələrə rəhbərlik etdiyi qəzetin yaranma tarixi, keçdiyi yol və hazırkı fəaliyyət istiqamətləri barədə danışıb.

Baş redaktor qeyd edib ki, “Şərq qapısı” qəzeti müstəqillik ideyalarının həyata keçirilməsində fəal mübarizə aparmışdır. Ümummilli Liderimiz Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışından sonra



“Şərq qapısı”nın həyatında yeni dövr başlanmışdır. Belə ki, 1990-1993-cü illərdə qəzet Azərbaycanın çoxsaylı mətbu orqanları arasında birinci olaraq ölkəmizin düşdüyü bəlalardan yeganə xilas yolunu görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında görərək bu mövzuda yazılarla çıxış etmiş, muxtar respublikanın düşdüyü informasiya blokadasının aradan qaldırılmasında mühüm rol oynamışdır. Sara Əzimova tələbələrin diqqətinə onu da çatdırıb ki, hər zaman dövlətçiliyin inkişafına xidmət edən “Şərq qapısı” qəzeti həmişə olduğu kimi, bu gün də Heydər Əliyev ideyalarının ən böyük təbliğatçısıdır.

Baş redaktor tələbələrin qəzetdə təcrübə keçməsi üçün hər cür imkanların yaradıldığını da vurğulayıb.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.



*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Vərməziyar kəndindən olan şəhidimiz İbrahim Vəlizadənin anası Xurşud Vəliyevanın, Babək rayonunun Nehrəm qəsəbəsindən olan şəhidimiz Ümüd Niftəliyevin anası Fizzə Niftəliyevanın və Babək rayonunun Kalbaoruc Dizə kəndindən olan şəhidimiz Rəhman Əjdərovun anası Məhluqə Əjdərovanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## İbrahim Səməd oğlu Vəlizadə

*(11.06.1998- ∞)*

## Nakam ömrün qəhrəmanlıq zirvəsi





İbrahim ağlı, kamalı, savadı, iradəsi bütün müsbət keyfiyyətləri ilə ailəmizə dünyanı bağışlamışdı. 27 sentyabrda başlayan Vətən müharibəsi onu bizdən alıb apardı. İbrahimdən başqa üç oğlum da var. Ancaq yenə də İbrahim, İbrahim, İbrahim...

Hərbi liseydən gələndə gülə-gülə girərdi evə. Əvvəlcə balaca qardaşı Vurğunu qucaqlayıb öpərdi. Boynuna alar, onu əzizləyərdi. Deyirdim ki, ay İbrahim, bəs mən qaldım burada axı. Sonra məni qucaqlayırdı. Dayanmadan öpürdü. Deyirdi ki, ana, uşaqların çoxu yaxşı qiymət ala bilmədilər. Ona görə də onları evlərinə buraxmadılar. Amma mən çalışıb yaxşı qiyməti aldım ki, gəlib sizi görüm, sizin yanınızda olum.

Heç vaxt liseydən və ya akademiyada dərslərinin ağırlığından şikayət etmədi. Nə vaxt soruşurduq, elə deyirdi ki, hər şey yaxşıdır. Bir imtahanı çətin olanda deyirdi ki, ana, mənə dua elə imtahandan yaxşı qiymət alım. Bir də deyirdi ki, ana, az qalıb iki ulduzumu alam. İki ulduzunu aldı. Şəmkirin Seyfəli kəndində başladı İbrahimin xidməti. Heç yorulmurdu, şikayət etmirdi.

AHM-dən gələndə çantasını yerə qoyub boynuma sarıldı. Dedi ki, ana, seçim qarşısında qaldım, sənə heç nə ala bilmədim. Bilmədim anam nəyi bəyənər, nəyi bəyənməz. Baxın, mənə belə dəyər verirdi. İbrahimin o sözü, o nəvazişi ölənə qədər mənim yadımdan çıxmaz.



Hər zaman zəng vuranda deyirdim ki, ömrüm, günüm, həyatım. Deyirdim ki, nə yaxşı mənim sənin kimi oğlum var. Həmişə gülürdü. Cavab verirdi ki, ana, Allah sənə kömək olsun. İndi də balamı əvvəl necə sevələyirdimsə, eyni sevələyirəm. Deyirəm ki, ay mənim igid balam, cəsur balam, qorxmaz balam, haradasan? Axı evimiz, eşiyimiz sənsiz qalıb...

Deyirlər ki, ümidlər sonda ölür. Mənim ümidim hələ də var. Elə bilirəm, elə hiss edirəm ki, İbrahim sağdır. Mən bu gün elə ona görə yaşayıram. Yaşayıram ki, birdən İbrahim gəlsə, məni görsün. Gələr məni görməz, onda İbrahim necə dözər?

İbrahimin atası da mənim kimi intizar çəkir. Amma qürurluyuq. Qürurluyuq ki, İbrahim kimi oğulun valideynləriyik. Elə bir övlad böyütmüşük. Qürurluyuq ki, İbrahim canından çox sevdikləri uğrunda canını fəda etdi. Allah bütün şəhidlərimizin ruhunu şad etsin!

## Ümüd Oruc oğlu Niftəliyev

*(20.10.1998-16.11.2021)*

## Vətən yolunda canını fəda etdi





Ümüd çox nadinc uşaq idi. Bir yerdə durmazdı. O, dünyaya gəlişi ilə evimizə də sevinc gətirmişdi. Ümüd birinci sinfə də gedəndə çox sevindim. Dedim ki, oğlum artıq böyüyüb. Məktəbə gedərkən boynunu sığallayır, gələrkən bağrıma basıb öpürdüm. Dərslərinin necə keçdiyini soruşurdum. Yuxarı siniflərdə oxuyarkən deyirdi ki, ana, mən ya polis, ya da hərbçi olacağam. Bədəncə bir qədər zəif idi. Ona görə də razı olmurdum ki, nə polis, nə də hərbçi ola. Amma özü çox istədi. O qədər ürəkdən istədi ki, heç nə deyə bilmədik. Ümüd də niyyətinə doğru qaça-qaça getdi. Hər zaman deyirdi ki, biz mütləq torpaqlarımızı geri almalıyıq. Bu niyyətlə hərbi məktəbə daxil oldu Ümüd.

Üç il Naxçıvanda, dörd il də Bakıda akademiyada oxudu. Dördüncü kursda oxuyanda müharibə başladı. Getdi müharibəyə. 44 gün müharibədə iştirak etdi. Orden və medal aldı. Müharibədən çox sonra evə buraxdılar. 44 günlük müharibədə yaralanıb qazi olmuşdu. Amma yenə də hərbiyə geri döndü. Məktəbinə qayıtdı. Oxudu, qurtardı, leytenant rütbəsi aldı. Naxçıvana gəldi, bir aydan sonra yenidən işinə qayıtdı.



Noyabrın 12-dən sonra Ümüdə zəng çatmadı. 15-də Ümüdə zəng çatdı. Zəng vurdum telefonu açdı. Yoldaşımla yemək yeyirdik, sevindik. Dedik ki, Ümüd, bəs sən neçə gündü haradasan? Zənglərimizə cavab vermirsən. Demədi ki, haradadır. Dedi bir az qabağa getmişik. Telefon tutmur, narahat olmayın. Atası ilə danışanda tez-tez deyirdim ki, qısa elə. Ümüd kənardan danışır, erməni onu vurar. Elə bil ki, gözümə gəlirdi. Yemək boğazımda qaldı. Noyabrın 16-sı balam şəhid oldu. Hər şeyi yarımçıq qaldı. Oğlumun həsrətini çəksək də, çox qürurluyuq. Amma çox çətindir. Vətən sağ olsun!

## Rəhman Rasim oğlu Əjdərov

*(14.05.1998-01.11.2020)*

## Bayrağımızı hər şeydən üstün tutan igid





Rəhmanın bir qardaşı da var. Onları tək böyütmüşəm. Rəhman üç yaşında olanda atasını itirib. Çalışmışam ki, atasızlığı hiss etməsinlər. Öz övladım olduğu üçün demirəm, o qədər ağıllı, o qədər mehriban idi ki... Hərbçi olmaq istəyirdi. Naxçıvanda hərbi liseyi bitirdikdən sonra AHM-ə daxil oldu. Həmin məktəbi yaxşı qiymətlərlə başa vurdu...

...Gözüm hey qapıdadır. Bəzən düşünürəm ki, bu saat qapımızı açıb içəri girəcək. O məni tək qoymaz.

Rəhmanda qadın isməti var idi. Həm də çox ifallı idi. Məzuniyyətə çıxanda onu görməyə gəlirdilər. Əl verib bir qadınla görüşməzdi. Tez çölə çıxardı ki, birdən qadınlar utanar. Həm də çox ürəyiaçıq idi. Bakıda Fatma adında bir qadın satıcı vardı. Rəhman görür ki, o qadın mənim kimi atasız uşaq saxlayır. Deyir ki, Fatma xala mənim anamın həyatını yaşayır. Bütün kursantlardan xahiş edir ki, həmin qadından alış-veriş edin. Həmin qadın hələ də bizimlə əlaqə saxlayır. Elə yana-yana ağlayır ki, sanki öz övladını itirib.

Döyüşə getdi. Nə vaxt zəng vururdum, elə deyirdi, ay ana, biz arxadayıq. Demə, qabaqda səngər qazırmışlar. Tez-tez baş leytenant rütbəsi alacağından danışırdı. Deyirdi ki, yəqin, oktyabr ayında verərlər.

Sonuncu dəfə görüntülü danışdıq. Elə bu zaman onun digər telefonuna zəng gəldi. Rəhman tez-tez "oldu, oldu", – dedi. Demə, balam müharibədədir. Qolundan yaralanıb, yarasını da sarıtmayıb.

Oktyabrın 31-i axşam zəng vurdu. Dedi ki, əsgərləri gətirmişəm yuyunsunlar. Çox təmiz uşaq idi. Danışanda dedim ki, Rəhman evimizin ağsaqqalı sənsən, ehtiyatlı ol. Dedi, ana, sənə Şuşadan zəng vuracağam. Noyabrın 1-də şəhid



olub balam. Arzusuna çata bilmədi. Şuşanın azadlığını görmədi. Torpaqlarımızı qaytardılar, amma özləri qayıtmadılar. Nə deyim, torpağı, xalqı, bayrağı hər şeydən üstün tutaraq özləri bayraq oldular. Başımız sağ olsun!

# Naxçıvan regional "ASAN xidmət" mərkəzi bir yaşında




Vətəndaşlara göstərilən xidmətlərin yüksək səviyyədə həyata keçirilməsini təmin edən Naxçıvan regional "ASAN xidmət" mərkəzinin yaranmasından bir il ötür. 18 may 2023-cü ildə açılan mərkəzdə insanların sosial problemlərinin həlli daha asan formada həyata keçirilir. Belə ki, vətəndaşlara onların rahatlığı əsas götürülərək operativ, şəffaf, nəzakətli, məsuliyyətli və etik qaydalara riayət etməklə xidmət göstərilir. Naxçıvan regional "ASAN xidmət" mərkəzinin 1 illik fəaliyyəti ilə bağlı təşkil olunan mediaturda mərkəzdə yaradılan şəraitlə yaxından tanış olduq. Öyrəndik ki, mərkəzdə "Sürücülük vəsiqələrinin dəyişdirilməsi", "Ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi", "Şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi", "Məhkumluq barədə arayışların verilməsi", "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı", "Daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı", "Əmək pensiyalarının təyin edilməsi", "Miqrasiya xidmətləri", "Notariat fəaliyyəti", "Konsulluq xidmətləri", "Hərbi qeydiyyat", "Kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı", funksional yardımçı xidmətlərdən bank, foto, tibb, tərcümə, kommunal (qaz,işıq,su), sığorta, poçt, psixoloq, loqoped xidmətləri fəaliyyət göstərir. Bundan başqa, mərkəzdə uşaqlar üçün ödənişsiz uşaq əyləncə mərkəzi, "ASAN kafe", kitabxana və sair imkanlar da yaradılıb. Mərkəzdə daha çox müraciət "Şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi" və "Notariat fəaliyyəti" xidmətləridir ki, bu xidmətlərdən yararlanan vətəndaşlar sonda öz təkliflərini mərkəzin təşəkkür kitabında qeyd edir və ya rəy sorğularında könüllülərə bildirirlər.














Həmçinin burada ərazi bütövlüyümüzün bərpası uğrunda yaralananlar və şəhid ailələrinin üzvləri üçün xüsusi xidmət təşkil edilmişdir. Həmin xidmət vasitəsilə müvafiq kateqoriyadan olan şəxslər xidmətlərdən növbə gözləmədən yararlana bilirlər. Göstərilən xidmətlər qazi və şəhid ailə üzvlərinin yalnız özləri ilə bağlı olan müvafiq işlərə şamil edilir. Məqsəd onların daim xalqımızın diqqət mərkəzində olduqlarını göstərməkdir.

Naxçıvan regional "ASAN xidmət" mərkəzində fəaliyyət göstərən xidmətlərdən biri də "Nikahın qeydə alınması" xidmətidir. Eyni zamanda əhali tərəfindən ən çox diqqətçəkən layihələrdən biri "ASAN xidmət" mərkəzində "Əsgərə məktub", "ASAN məktub" kimi layihələrdir.

Diqqətə çatdıraq ki, "ASAN xidmət" mərkəzlərinin ən mühüm resurslarından biri könüllülərdir. "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən könüllülərin əldə etdikləri təcrübə gələcəkdə iş həyatlarında uğur qazanmaqda onlara köməklik edir.

Mərkəzdə növbə gözləyən zaman vətəndaşların həmin müddəti səmərəli keçirməsi üçün kitab guşələri də yaradılıb. Elə biz də burada kitab oxuyan vətəndaşlara yaxınlaşaraq mərkəz haqqında təəssüratlarını öyrənirik. Ordubad rayon sakini Gülzar Əsədova deyir ki, şəxsiyyət vəsiqəmin dəyişdirilməsi üçün müraciət etmişdim. Vaxt itkisi yaşamadan, rahat və asan şəkildə sənədlərimi düzəldə bildim. Burada işçilərin vətəndaşlara göstərdiyi isti münasibət və nəzakətli davranış, həqiqətən, təqdirəlayiqdir.

Digər müsahibimiz Naxçıvan şəhər sakini Rövşən Məmmədov yaradılan şəraitdən məmnunluğunu bildirdi. O deyir ki, elə içəriyə daxil olarkən gülərüz kollektivin qarşılaması bizi doğma evimizdəymiş kimi hiss etdirdi. Mən də daşınmaz əmlakla bağlı müraciət etdim. Heç bir çətinliyə rastlamadan asan şəkildə köməklik göstərildi. Belə şəraiti Naxçıvan sakinlərinə yaratdığı üçün ölkə başçısı cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm.




Qeyd edək ki, 1 il müddətində Naxçıvan regional "ASAN xidmət" mərkəzində 422 mindən çox vətəndaş müraciəti qeydə alınıb. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 400-ə yaxın xidmət həyata keçirilir.

Vətəndaşlar "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlər, tələb olunan sənədlər barədə isə sualları əlavə vaxt itirmədən, xidmət mərkəzlərinə getmədən operativ şəkildə cavablandırılması üçün respublikanın istənilən regionundan stasionar telefonlardan ödənişsiz olaraq 108 "Çağrı mərkəzi"nə müraciət edə, həmçinin *asan@asan.gov.az* elektron poçt ünvanı və ya "ASAN xidmət"in rəsmi "Facebook", "Instagram" səhifələri vasitəsilə bildirə bilərlər.

Mərkəz operativ, şəffaf, nəzakətli, məsuliyyətlilik prinsipinə əsaslanaraq vətəndaşların rahatlığını düşünərək fəaliyyətini davam etdirir. Siz də Naxçıvan regional "ASAN xidmət" mərkəzinə yaxınlaşaraq işlərinizi asanlaşdıra bilərsiniz.

**Bülbül QULİYEVA**

## "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik"

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində nümunəvi ailələrlə görüş keçirilib, "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda keçirilən müsabiqənin qalibləri mükafatlandırılıb.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, Zərifə xanım Əliyevanın və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Tükəzban Quliyeva bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyev hakimiyyətinin hər iki dövründə milli dəyərlərimizin qorunub yaşadılmasına, ailə dəyərlərinə qayğı ilə yanaşıb, ailə siyasətinin formalaşdırılması məsələlərinə böyük diqqət yetirib. Azərbaycanda ailə, qadın və uşaq siyasətinin əsasını qoyan Ulu Öndər Heydər Əliyev yolunu və ideyalarını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva daha da gücləndirirlər. Bu baxımdan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ailəsi də gənclərimizə örnək, ən gözəl nümunədir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, Azərbaycan xalqı hər zaman ailə dəyərlərini, ailə ləyaqətini hər şeydən uca tutub və bu, bizim milli adət-ənənəmizə çevrilib. Komitə sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 100 illiyi və "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə "Muxtariyyətin ailələri – 100" mövzusunda 15 may – Beynəlxalq Ailə Günü çərçivəsində keçirilən tədbirdə uzunömürlü və gənc ailələrin, şəhid, qazi və hərbçi ailələrinin, dövlət qulluqçusu, hakim və müəllim ailələrinin üzvləri, eyni zamanda komitə tərəfindən elan edilən müsabiqənin qalibləri və ailə könüllüləri iştirak edirlər. Komitə sədri yubilyar ailələri, yəni evliliklərinin 50, 55 illiyi tamam olan və digər ailələri təbrik edib, onlara öz xoş arzularını çatdırıb.

Evliliklərinin 50-ci ili tamam olan uzunömürlü ailənin üzvləri İsfəndiyar Əhmədov və Rəqiyyə Hüseynova, şəhid Emin Sadiqovun anası Gülşad Rüstəmova, şəhid Sahil Məmmədovun həyat yoldaşı Turanə Məmmədova, hərbçi ailəsi Səkinə Cəbiyeva, evliliklərinin 51-ci ili tamam olan uzunömürlü ailənin üzvü Zeynəb Rzayeva, gənc müəllim Pərviz Quliyev və digər çıxış edənlər xalqımızın ailə dəyərlərindən və Azərbaycan ailəsində yetişən igid vətən övladlarının şücaətindən danışıblar.

Çıxışların ardından tədbirdə iştirak edən bütün kateqoriyadan olan ailələrə hədiyyələr təqdim edilib.

Sonra müsabiqənin qalibləri mükafatlandırılıb. Qeyd edək ki, ümumilikdə, müsabiqəyə 44 yazı, 60 rəsm və 24 dekorativ iş təqdim olunub. Müsabiqənin nominasiyaları üzrə 1-ci, 2-ci, 3-cü və həvəsləndirici yerlərə layiq görülmüş 20 iştirakçıya diplom və hədiyyələr verilib. Komitənin foyesində müsabiqəyə təqdim olunan əl işlərinin sərgisi təşkil olunub.

Tədbirin sonunda Naxçıvan şəhər 7 nömrəli körpələr evi-uşaq bağçasının balaca fidanları ədəbi-bədii kompozisiya ilə çıxış edib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Külüs kəndində canlanan həyat

*...Burda böyümüşəm, burda deyirlər*
*İnana bilmirəm, bilmirəm axı.*

Xalq şairi Məmməd Arazın doğulub, boya-başa çatdığı Nursu kəndinin poetik təsviri bu misralarda şairin doğma kəndinə bağlılığında, onun sonsuz gözəlliyinə heyrət içində baxmağından doğur.

***Kəndimiz. Kənd həyatı. Kənddə keçən uşaqlıq xatirələri***

Bu adlıq cümlələri həyatımızda tez-tez eşidirik. Kimisi üçün uşaqlıq xatirələrinin yaddaşlara hopduğu yer, kimisi üçün ən yaxşı istirahət mərkəzi, kimisi üçün cənnətin yer üzündə əksi, hamımız üçün isə ərazicə kiçik, mahiyyətcə böyükdür kənd.

Mən bu yazını kəndimizdən yazıram. Budur, kəndin ən yüksək yerlərindən birindən – "Armudlu" təpədən kəndi seyr edirəm. Şahbuz rayonunun Külüs kəndi bu yaz fəslində daha da gözəl görünür. Kəndin ortasından axan dağ çayı, dərələrdə, təpələrdə baş qaldıran yemişan, həmərsin kolları, çöl armudları, təzəcə çiçək açıb kəndin yamaclarına xalı kimi sərilən çöl badamları buralara ayrı bir gözəllik qatır. Kəndin yuxarı başında "Armudlu" adlanan ərazi vaxtilə sıx meşəlik idi, burada müxtəlif növdə armud ağacları olub. Təəssüf ki, 90-cı illərin məlum hadisələri, çətinlikləri kənd adamlarının isinmək naminə bu ağacları kəsməsinə gətirib çıxarıb. "Armudlu" massivindən aşağıda illərdir ki, ətrafa boylanan bir ağac var. Söyüd ağacı. Kənd adamları buna "tək söyüd" deyirlər. Çünki bu ağac Külüsün, bəlkə də, son altmış-səksən illinə şahidlik edib. Çətin günlərdən çıxan, ətrafındakı "qohum-əqrəbası" doğrana-doğrana bu günə gəlib çıxan söyüd ağacı indi kənd adamlarının qoruduğu, hətta ətrafında yaşıllıqlar saldığı, əkinbiçin apardığı, müqəddəs saydığı bir ağacdır. Son illərdə muxtar respublikada aparılan ekoloji tədbirlər nəticəsində indi bu yerlər əvvəlki görkəminə qaytarılır.

Kəndin yeniyetmələrinin at çaparaq, dağların qoynundakı yamaclarda qoyunquzu otardığını görmək, çiskin bir yağışın altında, təzə çıxan dağ pencərlərini yığan kənd adamları ilə söhbət etmək, hərdən səsini ucaldan dağ çayının səsinə qulaq vermək – seyr etməkdən doymadığım ən gözəl mənzərələr idi:

*Bu da "yəhərləyib" mindiyim boz daş...*
*Kövrəlmə, ürəyim, tab gətir, tablaş.*
*Ömrümün ləzzəti a köhnə dam-daş,*
*Nə yaxşı görüşdük, nə yaxşı yenə!*

Haradansa yadıma düşən bu şeiri söyləyə-söyləyə dərənin boğanağında at belində duran gəncə yaxınlaşıram. Müsahibim elə uşaqlıq dostum Nadirdir. Nadir Quliyevlər ailəsinin böyük oğludur. Hazırda Şahbuz rayonunda elektrik şəbəkəsində elektrik çilingəri işləyir. Buna baxmayaraq, Nadir ailəsi ilə birlikdə kənddə böyük təsərrüfat yaradıb.

Söhbətimiz zamanı Nadir dedi ki, bizlər 2000-ci illərin uşaqları, 2010-cu illərin yeniyetmələriyik. Gözümüzü açıb ölkəmizi müstəqil, firavan görmüşük. Çətin günləri ancaq böyüklərimizdən eşitmişik. Tay-tuşlarımızın hərəsi bir sahədə işləyir, kimi müəllim, kimi həkim, kimi jurnalist, kimi də mənim kimi elektrik çilingəri işləyir. Fikrimcə, kənddə doğulan, necə deyərlər, kənd ilə nəfəs alan insan gərək kəndi unutmasın. İndi biz təsərrüfatçılara da dövlət hər cür şərait yaradıb. Yəni bir ailə təsərrüfat qurub yaxşıca dolanırıq. Min şükür. Bir sözlə, kənd bizim üçün firavanlıq, əmin-amanlıq və rahat yaşayış deməkdir.

***Ümmanlar dağları udar, bitirər,***
***Dağ ağlar – göz yaşı çıxar dizinə.***
***Çaylar ümmanlara soraq gətirər,***
***Dağ – həyat özgəyə, qənim özünə.***
***Mən uca dağlara babam demişəm,***
***Ərköyün balayam dağlar yanında.***
***Zirvələr qaşına yuvam demişəm,***
***Əyilməz qalayam dağlar yanında.***

**Məmməd Araz**

***

Kəndə yağış yağır... Yağış damcılarının səsi sanki nə zamansa oxuyub yarımçıq saxladığım "kənd nağılı"nı tamamlayır... O damcılar kəndə yeni can, yeni nəfəs verir. Buralara yağan yağışlar, əslində, kənd adamlarının təsərrüfatına heç bir ziyan vurmur, əksinə, kəndin torpaqlarına can verir ki, bu da gələcəkdə bol məhsul deməkdir. Elə yağışı seyr edə-edə sizə kəndimizin tarixi barədə də məlumat verim. Kəndimizin tarixi Orta Tunc dövründən başlayır. Haqqıxlıq, Köhnə Külüs, Dev damı, Əyrək, Şansu ölən, Əşgab, Qaradağ, Sarıdağ, Külüs qalası kimi yerlərdə qədimdə yaşayışın olduğu sübut edilib. Haqqıxlıqda aparılan arxeoloji qazıntılarda eradan əvvəl III-II minilliyə aid tunc xəncər, ox ucu, qablar və əqiqdən muncuqlar, bəzək əşyaları tapılıb.

Kəndin tarixinə nəzər saldıqda maraqlı bir faktla qarşılaşırsan ki, Osmanlıların 27 avqust 1727-ci ildə tərtib edilən "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə qeyd olunur ki, Külüs kəndi il ərzində dövlətə 9 min axça vergi ödəyir. Bu vergi ölçüsünə görə Şahbuz və Qarababa kəndlərinin ödədiyi vergidən sonra ikinci yerdə idi. Bu isə onu sübut edir ki, Külüsün, o cümlədən qədim Əyrək kəndinin istifadə edilən torpaqlarında taxıl, qaba yem üçün xaşa, yonca, tərəvəzlərdən xiyar, kartof, lobya və başqa bostan bitkiləri əkilirdi.

Yağış kəsir...Təmiz dağ havası, uca dağ zirvələrindən əsən soyuq külək, yağışdan sonra təpələrə qalxan, səs-səsə verib mələşən quzular, dərələrdə yağışdan sonra qoxusu daha da yayılan kəklikotular necə də möhtəşəm mənzərələr yaradır:

*Kəndin hər nemətdən yenə var payı –*
*Qayanın kəkotu, dağın qar payı...*
*Uzanıb yatdığım çəmən çarpayı,*
*Nə yaxşı görüşdük, nə yaxşı yenə!*

Külüs kəndində yetişdirilən heyva və gilənar sortları bu gün də Naxçıvanda Külüs albalısı və Külüs heyvası kimi tanınır. Kəndin ərazisindəki "Hacı Müslümün Bağı"nda 30 dan artıq meyvə və giləmeyvə ağacı mövcud olub. Onlar Naxçıvanın və ümumilikdə, Azərbaycanın müxtəlif bölgələrindən gətirilərək yerli iqlimə uyğunlaşdırılıb. Təəssüf ki, 1990-cı illərin məlum hadisələri nəticəsində bu bağ tamamilə qırılıb. Bağı Hacı Müslüm adında bir bağban, təqribən, 19-cu əsrin sonları – 20-ci əsrin əvvəlində salıb.

Bu kəndin maraqlı toponimləri də var. İllərdir ki, kənd adamları ata-babalarından eşitdikləri yer adlarını bu gün də qoruyub saxlayırlar. Külüs kəndindən keçən çayın sol tərəfində yerləşən gümbəzvari Qaradağın, kəndin yuxarı başındakı Əyrək massivinin adı "Kitabi-Dədə Qorqud"da çəkilir. Bu kənd rayon ərazisində yeganə yerdir ki, 5 ziyarətgahı var. Əşgab piri, Kaha piri, Qara pir, Sarı pir və Xəşdaş deyilən ziyarətgahlar indi də müxtəlif bayramlarda, xüsusən də Novruz bayramında kənd adamları tərəfindən ziyarət olunur.

***

Kəndimizin adı ilə, suyunun dadı ilə fərqlənən bulaqları da var. "Hümüşün bulağı", "Dadaşın bulağı", "Çay bulaq", "Cücü bulağı", "Ölü bulağı", "Kəklik bulağı" və adını çəkmədiyim neçə-neçə bulaqlardan vaxtilə məhəllə uşaqları ilə birlikdə çox su daşımışıq. İndi bu bulaqların yarısı quruyub, adı qalıb, yarısını da kənd sakinləri öz həyətlərinə çəkiblər.

Hər dəfə söhbətimin yaşlı insanlarla yaxşı tutduğunu bilirəm, elə buna görə də həmyaşıdlarımı da götürüb, bizə Azərbaycan dili və ədəbiyyatı sevdirən orta məktəb müəllimimiz Dadaş müəllimi ziyarətə gedirik. Bizi görəndə bir az kövrələn, amma gözlərindəki fərəh hissini duyduğum Dadaş müəllimin yaşı, deyəsən, öz işini görüb. Əlindəki əsası ilə bizə tərəf gələn müəllimimizlə hal-əhvaldan sonra söhbətə başladım. Dadaş müəllim deyir ki: "Külüs kəndi meyvəsi, təbiəti, buz bulaqları ilə məşhur olduğu kimi, həm də ziyalıları ilə ölkəmizdə şöhrət tapıb. Vaxtilə biz qocaman müəllimlərin yetirmələri olan alimlərimiz, həkimlərimiz, rəssamlarımız, iqtisadçılarımız, jurnalistlərimiz kəndimizin fəxrləridir. Kəndimizdən ən çox rəssam və şair çıxıb, bilirsiniz niyə? Çünki buraların gözəlliyi, təbiətin al-əlvanlığı şairi də, rəssamı da ilhama gətirə bilir".

Hələ sovetlər dönəmindən bu kəndin ziyalılarının çox olduğunu deyən təqaüdçü müəllim deyir ki: "Kəndimizin məktəbində o zamanlar şərait yox idi. Uçuq-sökük məktəb binası, kömür sobaları pedaqoji kollektivi təngə gətirmişdi. Amma buna baxmayaraq, şagirdlərimizin biliyə, təhsil almağa marağı çox idi. Kamal müəllim, Vəliyullah, Sevindik, Yavər, Qiblə, Rövşən müəllim var idi. Allah onlara rəhmət eləsin. (Dadaş müəllimin gözləri dolur) Onlar kimi savadlı müəllimlərimizin sayəsində bu gün Külüs kəndində elm-təhsil ənənəsi hələ də davam etdirilir. Sizin kimi, alitəhsilli, vətənpərvər, istiqanlı gəncləri görəndə isə sanki bir az da yaşamaq üçün ömür qazanıram".

Yaşı səksəni ötmüş kəndin ağsaqqal müəllimlərindən olan Dadaş müəllimlə şirin söhbətimizi sonlandırıb, sağollaşıram. Rahat asfalt yollar, təmir olunan qırmızı, yaşıl dam örtüklü evlər, kənd adamlarının yaşam tərzini göstərən şəxsi avtomobillər bu kəndi şəhərdən heç də fərqləndirmir.

***

Külüs kəndi üzük qaşı kimi dağlarla əhatə olunub. Kəndin hündür dağ zirvələrində may-iyun aylarında da qar örtüyünə rast gəlmək olur. Burada min illərə şahidlik edən Qaradağ, Sarıdağ, Əmirsəyyad, Quş qayası, Əhməd qayası kimi zirvələr özünün zəngin flora və fauna aləmi ilə seçilir. Kəndin "Xornu" adlanan massivindəki Sarıdağdan Araz çayını, həmsərhəd ölkələrin ərazisini, Qaradağdan isə Haçadağın zirvəsini uzaqdan seyr etmək olur. Hətta "Dədə Qorqud" filminin Naxçıvandakı çəkilişi zamanı kəndin yüksək zirvələrindən olan Sarıdağ epizodlarda göstərilir. Ümumiyyətlə, əksər kəndlərdə dağların "sarı" və "qara" adlandırılması təkcə rənginə görə deyil, türk mifologiyasında "qara" sözünün böyük, uca, "sarı" sözünün isə günəşin rəngi mənasında olması ilə əlaqədardır. Külüs kəndindəki qaya adları, əksər dağ zirvələrinin adları da sübut edir ki, kənd qədim türklərin yurdu olub. Kəndin yaxınlığında yerləşən qonşu Keçili kəndinin "Üçqardaş", "Camal qayası" kimi dağ zirvələri Azərbaycan əsgərinin sahibləndiyi, qoruduğu və mətin dayandığı yerlərdir. Öz ordusuna, güclü dövlətinə güvənən kənd adamları bu dağların yamaclarını, yaylaqları həm də təsərrüfat məqsədilə istifadə edir. Kənddə artıq təsərrüfatçılar qoyun sürülərini dağlara qaldırıb. Külüs kəndinin sakinlərinin əksəriyyəti bu cür mal-qara ilə məşğul olur, bir az havalar isinən kimi kənd adamları dağlara doğru qalxır.

Enişli-yoxuşlu, dolanbac yolları qət etdikdən sonra həmin uca zirvələrdən kəndə boylanıram. Bu dağlardan görünən qonşu Nursu kəndinin dağları, Məmməd Araz şeirlərində yaşayan Toxlu qayası yadıma bu misraları salır:

*Ümmanlar dağları udar, bitirər,*
*Dağ ağlar – göz yaşı çıxar dizinə.*
*Çaylar ümmanlara soraq gətirər,*
*Dağ – həyat özgəyə, qənim özünə.*
*Mən uca dağlara babam demişəm,*
*Ərköyün balayam dağlar yanında.*
*Zirvələr qaşına yuvam demişəm,*
*Əyilməz qalayam dağlar yanında.*

Külüs kəndinin dağları müxtəlif dərman bitkiləri, dağ pencərləri ilə də zəngin olur. İlin, günün bu vədəsində artıq kənd sakinləri dağlarda pencər yığırlar. Cacıq, şomu, kiriş, qazayağı, xıncılovuz, yarpız kimi şəfalı bitkilər yurdumun insanının sağlam və ekoloji cəhətdən təmiz qida mənbələridir. Xüsusən may ayında kəndin dağlarında bitən dağ göbələklərinin də dad-tamı tamam fərqli olur. Min bir dərdin dərmanı olan bu bitkilər, kənd sakinlərinin qida mənbəyi olmaqla yanaşı, həm də bazara çıxartdıqları ekoloji cəhətdən təmiz məhsullardır.

Deyirlər, hər bir insan üçün onun doğulub, boya-başa çatdığı yer dünyanın ən gözəl yeri olur. Qəlbimizdə hər zaman xoş xatirələrlə andığımız, bəzən darıxdığımız, bəzənsə yaxşıca dincəldiyimiz böyük Vətənimizin kiçik parçası olan kəndlərimiz bizim yurd yerlərimiz, tarixi dəyərimizdir. Şahbuz rayonunun Külüs kəndi də özünün tarixi dəyəri, təbiəti, dağlarının vüqarı, əzəməti ilə seçildiyi kimi insanlarının qonaqpərvərliyi ilə də diqqəti cəlb edir:

*Qədəm ki, vermişdi o dağlar mənə,*
*Getməsəm, o dağlar od ağlar mənə,*
*Bir qaya dibində yer saxlar mənə...*
*Bircə boz daşına yazılsa adım,*
*Bəlkə, o yerlərə bir də qayıtdım...*

**Mətin KAMAL**
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***





# Şəhidin anım günü olub

Naxçıvan şəhərində yerləşən "Gənclik" Mərkəzində ötən il sentyabrın 19-da qanunsuz erməni silahlı birləşmələri tərəfindən törədilən terror aktı nəticəsində şəhidlik zirvəsinə ucalmış Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı polis serjantı Əsgərov Ələsgər Zakir oğlunun anım günü keçirilib. Öncə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb. Dövlət Himni səsləndirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin media üzrə məsul şəxsi Günay Malikqızı çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri və qazilər daim diqqətdə saxlanılır. Şəhid və qazilərimizin Vətən qarşısındakı xidmətləri dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Şəhidlərimizin, qazilərimizin qəhrəmanlıqları bundan sonra da unudulmayacaq, şəhid ailələri, şəhid övladları daim dövlətimizin himayəsi altında yaşayacaqlar. Şəhid ailələrinin birliyi, sakinlərin onlara olan hörməti hər birimizi sevindirir.

Qeyd olunub ki, qanunsuz erməni silahlı birləşmələri tərəfindən törədilən terror aktı nəticəsində həlak olan igid Azərbaycan polisinin qisası alındı və qeyri-qanuni erməni birləşmələri ağ bayraq qaldıraraq təslim oldu. 44 günlük döyüşlərdə başlanılan şanlı missiya Xankəndidə başa çatdı. Bayrağımız Xankəndidə dalğalandığı gün bütün dünya azərbaycanlı oğulların qəhrəmanlığına şahid oldu.

Tədbirdə şəhid Raqib Hüseynovun anası Rəna xanım, şəhid Ramazan Göydağlının atası Əbülfət ata, Bakı şəhərindən gəlib tədbirdə iştirak edən şəhid anaları və şəhid polis Ələsgər Əsgərovun anası, dayısı Tural Cəfərov çıxış edərək igid oğullarımızın şücaətindən, qəhrəmanlığından bəhs etdi.

Tədbir bədii hissə ilə davam edib.

Qeyd edək ki, Əsgərov Ələsgər Zakir oğlu 12 may 1997-ci ildə Naxçıvan şəhərində anadan olub. 2003-2014-cü illərdə Naxçıvan şəhəri Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbdə təhsil alıb. 2014-2018-ci illərdə Sumqayıt Dövlət Universitetinin İqtisadiyyat fakültəsində Menecment ixtisası üzrə əyani təhsil alıb. 2018-ci ilin iyul ayından 2019-cu ilin iyul ayınadək "N" hərbi hissədə müddətli həqiqi hərbi xidmətdə olub. 12 may 2022-ci ildən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Əlahiddə Çevik Polis Alayında polis serjantı kimi işə başlayıb. 2023-cü ilin iyul ayından Alayın Xüsusi təyinatlı taborunun polis nəfəri kimi fəaliyyətini davam etdirib. Lokal xarakterli antiterror əməliyyatlarının keçirilməsi ilə əlaqədar Şuşa şəhərinə ezam edilmiş polis nəfəri Əsgərov Ələsgər 19 sentyabr 2023-cü ildə Xocavənd rayonu istiqamətində qanunsuz erməni silahlı birləşmələri tərəfindən törədilən təxribat-diversiya terror aktı nəticəsində şəhidlik zirvəsinə ucalıb. Polis serjantı Əsgərov Ələsgər 20 sentyabr 2023-cü ildə Naxçıvan şəhərinin Əliabad qəsəbə qəbiristanlığında torpağa tapşırılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 noyabr 2023-cü il tarixli Sərəncamına əsasən Əsgərov Ələsgər Zakir oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

**Ramiyə ƏKBƏROVA**

# Zərif əllərin toxuduğu naxışı gözəl xalılar



Naxçıvan xalçaçılıq məktəbinin Azərbaycan xalçaçılıq sənəti tarixində özünəməxsus yeri və rolu vardır. Ənənəvi naxış və elementləri, zəngin rəng çalarları, orijinal kompozisiyaları ilə seçilən bu məktəb xalqımızın dünyagörüşünü, mədəniyyətini, məşğuliyyətini və həyat tərzini özündə yaşadır.



Gülsüm



Rübabə



Türkanə

Tarixi mənbələr göstərir ki, hələ IX-X əsrlərdə öz xalça və xalçaları ilə məşhur olan Naxçıvan XVI əsrdə xalçaçılığın həm bədii səviyyəsi, həm də istehsal həcminin artması baxımından öz inkişafının xüsusi mərhələsinə çatıb, burada toxunan zərif xalçalar Yaxın Şərq və Avropa ölkələrində qiymətləndirilib.

Bu gün də muxtar respublikamızda xalçaçılıq sənəti qorunub yaşadılır, onun inkişafı diqqətdə saxlanılır. 2021-ci il mayın 10-da Prezident cənab İlham Əliyevin iştirakı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının açılması, bu sahədə peşə təhsilinin dəstəklənməsi, əllə toxunmuş xalçaların reyestri sisteminin yaradılması, aparılan tədqiqatlar zamanı əldə edilən məlumatlar əsasında yeni elmi nəşrlərin hazırlanması və digər tədbirlər xalça sənətinin yaşadılması və inkişafına böyük təkan verib.

Peşəkar xalçaçılarımız tərəfindən bu dekorativ-tətbiqi sənət növü yaşadılır və inkişaf etdirilir. İlk müsahibim uzun illərdir, xalçaçılıq sənəti ilə məşğul olan, bu sahədəki fəaliyyətinə görə 2015-ci ildə "Rəşadətli əməyə görə" nişanı, 2017-ci ildə ölkə başçısının müvafiq Sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə təltif edilən ***Gülsüm Kəngərli***dir. O, xalçaçılığın sirlərini böyük bacısından öyrənib və 9 yaşından xalça toxumağa başlayıb: – Doğulub böyüdüyüm Babək rayonunun Vayxır kəndində qış sərt keçdiyi üçün pambıq iplərlə sıx xalçalar toxunurdu. Onların üzərində müxtəlif gül rəsmləri, nəbati ornamentlər, naxış elementlərindən istifadə olunurdu. Məsələn, göl geniş yayılan naxış elementlərindən biri idi. Xalça sənətində gölü "medalyon", "xonça" da adlandırırlar. Toxuduğumuz xalçalar xovlu və xovsuz olmaqla, ikiyə ayrılırdı. Xovluya xalça, xalı, gəbə və sair, xovsuza isə palaz, kilim, cecim, zili, şəddə və sair daxil idi. Xalça toxunan zaman iplərin boyanması əsas işlərdən sayılırdı. Müxtəlif bitkilərin yarpaq, çiçək, meyvə, qabıq və digər hissələrindən boyaq məhsulları hazırlayıb yun, ipək və pambıq ipliklərin boyanmasında istifadə edirdik. 1990-cı ildə Vayxır kəndində açılan xalçaçılıq sexində usta kimi fəaliyyət göstərmişəm. 1999-cu ildə Xan sarayında (o vaxt Xalça Muzeyi orada fəaliyyət göstərirdi) təşkil edilən sərgidə ilk dəfə əl işlərim nümayiş olundu. Ümummilli Liderimiz Heydər Əliyev həmin tədbirdə iştirak edirdi. Ulu Öndər naxçıvanlı qadınların əl işlərini çox bəyənmişdi. O gündən sonra məni də Naxçıvan Dövlət Xalça Muzeyinə işə dəvət etdilər. Eyni zamanda Naxçıvan Regional Peşə Tədris Mərkəzində müdavimlərə xalçaçılığın sirlərini öyrətmişəm. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin yaşadılması ilə bağlı layihələrdə iştirak edirəm.

Babək rayonunun Vayxır kəndindən olan ***Rübabə Əliyeva*** da gənc yaşlarından bu sənətə könül verənlərdəndir. 15 yaşından xalçatoxuyan, tərtibatçı-rəssam kimi fəaliyyət göstərən Rübabə xanım dedi: – Süjetli xalçalar toxuyuram. Azərbaycanda süjetli xalçaların toxunması qədim tarixə malikdir. Əvvəllər rəssamlar xalçalar üzərində müxtəlif ov, savaş, məhəbbət, saray həyatına həsr olunmuş kompozisiyalar işləyirdilər. Bu xalçalar divardan asılmaqdan ötrü toxunur və onların toxunmasında yüksəkkeyfiyyətli yun, zərif iplik istifadə edilirdi. Yüksək sıxlıq və zərif xov Naxçıvanda toxunan süjetli xalçaların əsas xüsusiyyəti idi. Xalçaların naxış kompozisiyasında yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tuturdu. İndi mənim hazırladığım süjetli xalçalar üzərində Naxçıvan gözəli, Tıq-tıq xanım, dəvə karvanı, buta və sair yer alır. İndiyədək 200-ə yaxın böyük və kiçik ölçülü xalça toxumuşam.

Bu gün muxtar respublikamızda bu sənətin öyrənilməsi, yaşadılması üçün hər cür şərait mövcuddur. Əl işlərimizi sərgi-satış yarmarkalarında, festivallarda nümayiş etdirir, satışına nail oluruq. Həmçinin bu sahədə əməyimiz dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Ölkə Prezidentinin müvafiq Sərəncamı ilə 2018-ci ildə Azərbaycanda xalçaçılıq sənətinin inkişafında səmərəli fəaliyyətimə görə "Tərəqqi" medalı ilə təltif edilmişəm. Bu mənim üçün böyük stimuldur. Bu sahəyə göstərdiyi qayğıya görə dövlətimizə minnətdaram.

1988-ci ildə Culfa rayonunun Ləkətağ kəndində doğulan ***Türkanə Musayeva*** 14 ildir, xalçaçılıq sənəti ilə məşğul olduğunu deyir: – 2009-cu ildə peşə məktəbində toxuculuq kursunu bitirdikdən sonra İqtisadiyyat Nazirliyinin nəzdində olan xalçaçılıq emalatxanasında işləmişəm. Orada xalça sənətinin incəliyini daha dərindən Gülsüm və Həcər xanımdan öyrəndim. 2015-ci ildən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində xalçaçı kimi çalışıram və 2021-ci ildən birliyin üzvüyəm. Xalçaçılıq mənim üçün başqa bir aləmdir. Hananın arxasına keçib xalçanı toxuduqca, ilmələri vurduqca sanki ruhum dincəlir. Əsasən, qobelen, süjetli xalçalar toxuyuram. Muxtar respublikada keçirilən sərgi və yarmarkalarda iştirak edirəm. Ötən ilin 27-30 oktyabr tarixlərində Türkiyənin Çorum şəhərində keçirilən sərgidə əl işim nümayiş olundu. Xalçaçılıq sənəti bizim tariximiz, milli dəyərimiz, incəsənətimizdir. Bu ənənəni qoruyub saxlamalı və gələcək nəsillərə ötürməliyik.

**Güntac ŞAHMƏMMƏDLİ**



# Nuh yurdunun əzəmətli Haçadağı

Əsrarəngiz gözəlliklər diyarı qoca Şərqin qapısı Nuh yurdunda tarixin canlı şahidləri kimi möhtəşəmlik timsalı olan, göylərə boyverən dağları da öz vüqarı ilə diyarımızın əzəmətini özündə ehtiva edir. Naxçıvanın simvoluna çevrilmiş belə möhtəşəmlik zirvələrindən biri də Haçadağdır. Ətəyində laləli düzlər Əlincəçayın şehindən qidalanaraq məxməri parça kimi ana torpağa təbii bir don geyindirib. Biz naxçıvanlılar bu uca zirvənin kölgəsində boy atmışıq. Hüsnünə baxdıqca hər daşı, hər qayası bizə yurdumuzun keçmişindən xəbər verən bu dağa tarixin keşməkeşli daş kitabəsi də demək olar. Bu gözəlliklərin fonunda yurdumuzun insanları halay çəkib yallı gedir, birliyimizin, bərabərliyimizin Haçadağın vüqarı ilə vəhdət təşkil etdiyini dünyaya nümayiş etdirirlər. Bu dağ həm də bu qədim diyarın insanının başucalığının bənzəridir.

Zəngəzur silsiləsindən cənub-qərbə ayrılan Dəmirlidağ-Göydağ qolunun qurtaracağında, Əlincəçayın sol sahilində, Kırna kəndindən 6 kilometr şərqdə yerləşir Haçadağ. Mənbələrdə qeyd olunur ki, dağın adı "məskunlaşma yeri, diyar, xalq" mənalarını verən türk sözü "il/el" və qədim türk səcdəgahı "Annu" adının birləşməsindən əmələ gəlmiş və "Allahın yaşadığı məskən" mənasını daşıyır.

*Başında həmişə dumanlar gəzər,*
*Çağlayar, qaynayar, daşar Haçadağ.*
*Çiçəklər köksündə yazıya bənzər,*
*Olar ilk bahara şüar Haçadağ.*

*Qoşa buynuzu var maral timsalı,*
*Olub Naxçıvanın hüsnü, camalı.*
*Dağlar maralına bənzər bu halı,*
*Sevən ürəkləri oxşar Haçadağ.*

*Hərdən şimşəklərin gələr tuşuna,*
*Göylər ildırımı çaxar başına,*
*Xırda təpələri yığar başına,*
*Özü sərkərdəyə oxşar Haçadağ.*

**Muxtar QASIMZADƏ**

Şumer mənşəli əfsanəyə görə Nuh Peyğəmbərin gəmisi Gəmiqayadan Ağrı dağına yola düşərkən İlandağın zirvəsinə elə güclü toxunmuşdur ki, dağ haçalanmışdır. Ehtimal ki, dağın adı da bu əfsanə ilə bağlıdır.

Başı göylərə çatan Haçadağ bu gün onu görən hər bir yaradıcı insanın ilham mənbəyinə çevrilir; şairlərin şeirinə, bəstəkarların bəstəsinə. Rəssamlar fırçası ilə bu əzəmətli dağı kətana köçürməyi özlərinin sənət borcu sayırlar. Ona görə də istər yerli, istərsə də yurdumuza qonaq gələn xarici rəssamlar fərqli üslublarda Haçadağın ecazkar gözəlliyini kətan üzərinə həkk edirlər.

Bənövşəyi rəngli sal qayalıqlarla öz sərtliyini ifadə edən bu əzəmət abidəsi düşmənə gözdağıdır. Bəli, bu dağ basılmazlığın ifadəsi, mərdliyin simvoludur.

100 illik yubileyini qeyd etdiyimiz muxtariyyətimizin də elə canlı salnaməsidir bu dağ.

**✍ Aidə İBRAHİMOVA**

## "AzerGold"un növbəti qızıl sikkəsi Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunub



"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə qızıl sikkə kolleksiyası istehsal edilib.

Nəfis tərtibatda dizayn edilmiş, incə naxışlarla zərb edilmiş 999.9 əyarlı, 5, 10 və 20 qram çəkiyə malik qızıl sikkələr bəşər sivilizasiyasının ilk beşiklərindən olan, antik, orta əsrlər, yeni dövr maddi mədəniyyət nümunələri, təbiət, həmçinin tarixi abidələri ilə seçilən mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi böyük şöhrət tapmış qədim diyarın şanlı keçmişinə işıq salır.

Sikkə dairəsinin üzərində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Naxçıvan Xan sarayı, Möminə xatın türbəsi, Qazançı körpüsü, Qarabağlar türbəsi, Gülüstan türbəsi, Yusif Küseyiroğlu türbəsi, "İmamzadə" kompleksi və Haçadağ təsvir olunub. Dairənin mərkəzində "Naxçıvanqala" Kompleksinin qala divarlarının mazğallarından bir fraqment dizayn edilib. "100" ədədini xatırladan dizayn elementi muxtar respublikanın 100 illik yubileyini ifadə edir.

### Bildiriş

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Kəhrəba Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 8 aprel 2024-cü il tarixli 452-06/S nömrəli Sərəncamına əsasən "Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxsi ləğv edilmişdir.

### İtmişdir

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində Novruzova Bağdagül Novruz qızının adına olan JN-1515$^A$ və JN-1515$^B$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dırnıs kəndində yaşamış Allahverdiyev Maxsud Şəhrud oğlunun adına olan AA 000937 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kəndində yaşamış Quliyeva Səhnə Əhməd qızının adına olan JN-0420 nömrəli, 10308038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Türkiyə vətəndaşı Ahmet Yaşar Altuna məxsus A-27-M 59741 nömrəli, 32903324242 nömrəli kimlik itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhəri, 2-ci məhəllə, küçə 26-da yaşamış Həşimov Silduz Əli oğlunun adına olan 163 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kənd sakini Babayev Siyafər Əli oğlunun adına olan JN-337 nömrəli, 10200028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa şəhər sakini Hüseynov Valeh Təyyar oğluna məxsus 897$^A$ kadastr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Fərəcov Fərəc Hüseyn oğlunun adına olan JN-132 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Fariz Əhmədov, Aidə İbrahimova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 145